10 iyul 2020-ci il
№20 (8884)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

## Bu sayımızda

**UFAZ-da onlayn formatda ilk "Məzun Günü"**
⇨səh.2

**"Ümumi təhsil sahəsində 2019-2020-ci tədris ilinin yekunu və növbəti tədris ilinə hazırlıq"**
⇨səh.5

**Hökumətlərarası Təqaüd Proqramlarına dair internet səhifəsi istifadəyə verilib**
⇨səh.8

**200 Azərbaycan vətəndaşı Macarıstanda təhsil almaq hüququ qazanıb**
⇨səh.8

# Təhsil Nazirliyi və Dövlət İmtahan Mərkəzinin birgə məlumatı

Məlum olduğu kimi, respublikada koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması ilə bağlı həyata keçirilən tədbirlər, o cümlədən bəzi şəhər və rayonlarda sərtləşdirilmiş karantin rejimi müddətinin 2020-ci il 20 iyul tarixinədək uzadılması ilə əlaqədar olaraq ölkənin bir sıra regionlarında ümumi təhsil pilləsində şagirdlərin yekun attestasiyası (buraxılış imtahanları) təxirə salınmışdır.

Qaydalara əsasən, məzunlara ümumi təhsil haqqında dövlət sənədi yekun attestasiyanın keçirilməsi prosesi başa çatdıqdan sonra təqdim edilir. Lakin mövcud vəziyyət tam orta təhsil səviyyəsini bitirmiş və növbəti pillədə təhsillərini xarici ölkələrdə davam etdirmək niyyətində olan məzunlar üçün bəzi çətinliklər yarada bilər. Belə ki, bu məzunların xarici ölkələrin ali təhsil müəssisələrinə qəbul prosesində iştirakı üçün bir qayda olaraq ümumi təhsil pilləsini bitirmələrini təsdiq edən dövlət nümunəli sənədin (attestatın) təqdim edilməsi tələb olunur.

⇨Ardı səh.2

# Böyük MÜƏLLİM, sadə İNSAN

Dünyanı fəlakətə sürükləyən ağır koronovirus pandemiyası Bakı Dövlət Universitetinin fizika fakültəsinin Nanomateriallarin kimyəvi fizikası kafedrasının dosenti, Respublika Fizika Olimpiadasının sədri, istedadlı alim və müəllim, dosent Naqif Nəbiyevdən də yan keçmədi. Azərbaycan təhsilində özünəməxsus əməyi olan Naqif müəllimin vaxtsız vəfatı doğmaları, yaxınları, dostları, tələbələri üçün böyük itki oldu. Bu işıqlı insanın, alimin, ziyalının, böyük mənada əsl Müəllimin yoxluğu onu tanıyanlar üçün gözlənilməz olduğu qədər də taleyin amansız qərarı idi.

Naqif Nəbiyev 29 iyul 1960-cı ildə Qərbi Azərbaycanda ziyalı ailəsində anadan olub. 1977-ci ildə indiki Bakı Dövlət Universitetinin fizika fakültəsinə daxil olub və oranı 1982-ci ildə müvəffəqiyyətlə bitirib. O, 1982-ci ildə aspiranturaya daxil olub və 1986-cı ildə oranı bitirərək uğurla dissertasiya işini müdafiə edib və fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi alıb. 1986-cı ildən fizika fakültəsinin Nanomaterialların kimyəvi fizikası kafedrasında işə qəbul edilib və ömrünün sonuna qədər bu kafedrada çalışıb. Onun pedaqoji fəaliyyəti çoxşaxəli olub. Orta məktəblərin istedadlı şagirdlərinin fizikadan respublika və beynəlxalq olimpiadalara seçilməsində və hazırlanmasında əvəzsiz xidmətlər göstərib. Onun rəhbərliyi ilə beynəlxalq olimpiadalara hazırlanmış şagirdlər dəfələrlə yüksək nəticə göstərərək ölkəmizə fizika sahəsində medallar qazandırıblar.

Universitet tələbələrinə təkcə bilik vermir, gələcək üçün yalnız motivasiya və inkişafın yolunu göstərmir: o həm də ona həyatda hər anda örnək olacaq əsl müəllim qazandırır. Və bu müəllimlər ömür boyu ruhən yanımızdadır. Öz həyatları, şəxsi keyfiyyətləri, insani nümunələri ilə. Tələbələrinin yaddaşına Naqif müəllimin adı səmimiyyətin, mehribanlığın, yüksək bilik və bacarıqların simvolu kimi yazılıb. Bir də tələbələrin dostu.

Bir həqiqət danılmazdır; tələbələri üçün sevimli müəllimləri həmişə yaşayar, heç vaxt ölməz. Naqif müəllim kimi...

Naqif müəllimi yaxından tanıyanlar onun yüksək elmi erudisiyası ilə yanaşı, həm də insani keyfiyyətləri barədə ən yüksək fikirdədirlər.

**Fuad Qarayev,** *Təhsil İnstitutunun İstedadlı uşaqlarla iş şöbəsinin müdiri:*

– Naqif müəllimlə mənim tanışlığım ən azı 15 il öncəsinə dayanır. O zamanlarda biz birlikdə beynəlxalq olimpiadalara şagirdlərin hazırlığı prosesi ilə məşğul olurduq. 2014-cü ildən etibarən Təhsil Nazirliyi tərəfindən istər Respublika fənn olimpiadalarının təşkili və keçirilməsinə, istərsə də beynəlxalq olimpiadalara hazırlıq prosesinə yanaşma müsbət yöndə dəyişmişdi. Onun savadlı, istedadlı, güclü fizik olmaqla yanaşı, müsbət insani keyfiyyətlərə malik olmasına bələd idim. Elə bu məqsədlə 2014-cü ildə Naqif müəllimə RFO-nın münsiflər heyətinə rəhbərlik etməsini xahiş etdim.

⇨Ardı səh.6

## UNEC brendi Estoniyada da tanındı

UNEC dünya təhsil bazarında Azərbaycan Dövlət İqtisad Universitetinin brendi kimi mövqeyini gücləndirməkdədir.

Ali məktəbdən verilən məlumata görə, UNEC brendi Litva, Latviya, Polşa, Slovakiya, Macarıstan, Xorvatiya və Türkiyədən sonra səkkizinci xarici ölkə olaraq, Estoniyada da qeydiyyatdan keçib. Yaxın zamanlarda UNEC markasının digər xarici ölkələrdə də tanınması gözlənilir.

Bildirilib ki, öz əhatə dairəsini gündən-günə genişləndirən UNEC təklif etdiyi təhsil proqramları və xidmətləri ilə artıq bir dünya markasına çevrilməkdədir. Universitetin dünyanın bir sıra nüfuzlu beynəlxalq reytinq təşkilatlarında əldə etdiyi uğurlu nəticələr həm də UNEC brendinin artan gücü ilə əlaqədardır.

# Peşə təhsili müəssisəsində bir ilk

Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsili Mərkəzində yüksək texniki peşə – subbakalavr səviyyəsi üzrə tədrisə başlanılacaq

Bu dərs ilində təhsil sistemi koronavirusun səbəb olduğu pandemiyadan ən az zərərlə çıxmağa çalışdı. Təhsildə böyük təcrübəyə sahib, məsafədən təhsili artıq müəyyən səviyyədə təbliq edən təhsil müəssisələri bu mərhələni uğurla başa vurdu. Tədris ilində çatışmazlığı olanların onu növbəti illərdə aradan qaldırmaq şansını nəzərə alsaq, pandemiyanın fəsadlarının həmin müəssisələrdə o qədər də ağır olmayacağını düşünə bilərik. Amma verdiyi təhsilin daha böyük hissəsi - 60 faizi praktik məşğələ, təcrübədən ibarət olan bir təhsil ocağı – Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində təhsil 1 illik olduğundan ilk Mərkəz ilk məzunlarını əmək bazarına təqdim edib. Üstəlik, fəaliyyətinin ikinci ilinə böyük yeniliklərlə başlayacaq. Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin direktoru Rəşad Xanlarov "Azərbaycan müəllimi" qəzetinə müsahibəsində pandemiya şəraitində vəzifələrinin öhdəsindən necə gəldiklərindən, eyni zamanda qarşıya qoyduqları planlardan danışdı.

### Pandemiya dövrü

*– Ötən tədris ilini necə başa vurdunuz? Qarşıya qoyduğunuz hədəflər koronavirusun kölgəsində qalmadı ki?*

-Etiraf edim ki, koronavirusun səbəb olduğu pandemiya bütün sahələrdə nisbi də olsa, öz təsirini göstərdi. Həmin sahələrdən biri də təhsildir. Ancaq ölkəmizdə bir çox təhsil müəssisələri bu vəziyyətdən ən az zərərlə çıxaraq tədris ilini uğurla başa vurdular. Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi məhz o təhsil müəssisələrindəndir. Bu dövrdə seçdiyimiz düzgün metodologiya, tədris strategiyası, təhsilə yanaşma, innovativlik, tədbirlərin vaxtında və lazımi sistem üzərindən yerinə yetirilməsi qarşılaşdığımız vəziyyətin təsirini minimallaşdırmağa kömək etdi. Mərkəz təhsilalanları üçün Təhsil Nazirliyinin dəstəyi ilə "Microsoft Teams" platforması üzərindən nəzəri dərslərin və praktik tapşırıqların qavranılması və tətbiqinə imkan yaratdı. Düzdür, bəzi praktiki məşğələlər keçirmək mümkün olmadı. Ancaq tedaərslər, mərkəzin "Microsoft Team"s distant təhsil platforması və təlimçilərin tədrisə kreativ yanaşması bu təsiri azaltmağa kömək etdi.

⇨Ardı səh.8

## SABAH təcrübəsi əsasında xüsusi istedadlı qruplar yaradılacaq

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında (ADBTİA) Təhsil Nazirliyinin SABAH qrupları layihəsinin təcrübəsi əsasında müvəffəqiyyətlə təhsil alan istedadlı tələbələrdən ibarət xüsusi qrupların təsis edilməsi nəzərdə tutulur. Məqsəd tədrisin keyfiyyətinin yüksəldilməsi, fərqli təhsil mühitinin yaradılması, savadlı və bacarıqlı tələbə yetişdirilməsindən ibarətdir.

Təhsil Nazirliyinin SABAH qrupları layihəsi ilə birgə əməkdaşlığa uyğun olaraq, ADBTİA çərçivəsində 2020-2021-ci tədris ili üçün xüsusi qruplar açılır. Birgə razılığa əsasən, ilkin olaraq "İdman menecmenti və kommunikasiya" ixtisası üzrə xüsusi seçim yolu ilə formalaşdırılan istedadlı tələbələr üçün akademiyanın müstəqil pilot qrupunun yaradılması məqsədəuyğun hesab edilib. Bununla əlaqədar müvafiq qrupların formalaşdırılması, tədrisin təşkili üçün tələbə və professor-müəllim heyətinin seçimi prosesinə start verilir.

Qeyd edək ki, SABAH qrupları layihəsi təhsil sistemində 2014-cü ildə yaradılan innovativ layihədir. 2019-cu ilin statistikasına əsasən, SABAH məzunlarının böyük bir hissəsi (müraciət edənlərin 88 faizi) ölkə daxili və xaricində (müraciət edənlərin 96 faizi) magistraturaya qəbul olub, dövlət (müəllimlərin işə qəbulu üzrə müsabiqədə iştirak edənlərin 78 faizi) və özəl sektorun müxtəlif sahələrində müvəffəqiyyətlə fəaliyyət göstərir. Azərbaycan təhsil sistemində artıq özünü doğrultmuş SABAH qrupları layihəsinin 6 illik təcrübəsindən istifadə edilməsi ADBTİA-da istedadlı tələbələrdən ibarət xüsusi qrupların yaradılmasına və uğurla fəaliyyət göstərməsinə əsaslar yaradır.



# Qocaman universitet - innovasiyalar mərkəzi

ADNSU-da tələbələrin ideyalarına əsaslanan startap və innovativ layihələr geniş vüsət alır

Səh.5



# “Təhsil haqqında” və “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 684; 2011, № 2, maddə 70; 2014, № 1, maddə 3; 2015, № 11, maddə 1266; 2016, № 1, maddə 41, № 11, maddə 1766; 2017, № 2, maddə 145, № 5, maddə 691, № 7, maddələr 1277, 1300, № 12 (I kitab), maddə 2202; 2018, № 7 (I kitab), maddələr 1381, 1409, № 11, maddə 2208; 2019, № 5, maddə 798, № 7, maddə 1190, № 8, maddə 1382, № 11, maddə 1684; № 12, maddə 1881; 2020-ci il 17 aprel tarixli 51-VIQD nömrəli Azərbaycan Respublikasının Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 9.3-cü maddədə “akkreditasiya xidməti” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)” sözləri ilə əvəz edilsin.

1.2. 16.3-cü maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

“Təhsil müəssisəsinin akkreditasiyasına görə “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu ödənilir.”.

1.3. 16.4-cü maddədə “müəyyən edilmiş qaydada yaratdığı dövlət akkreditasiya xidməti” sözləri “müəyyən etdiyi orqan (qurum)” sözləri ilə əvəz edilsin.

1.4. 17.4-cü maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Peşə təhsili üzrə qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə edilmiş bilik, bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi və tanınması ilə əlaqədar göstərilən xidmətlərə və həmin xidmətlərlə əlaqədar siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən digər xidmətlərə görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş məbləğdə xidmət haqqı ödənilir.”.

1.5. 29.0.28-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

“29.0.28-1. bu Qanunda nəzərdə tutulmuş dövlət rüsumunun və xidmət haqlarının məbləğini müəyyən etmək;”.

1.6. 29.0.37-ci maddədə “təhsil proqramlarını” sözləri “təhsil proqramlarını (kurikulumları)” sözləri ilə əvəz edilsin.

1.7. 32.3.15-ci maddədə “peşə” sözü “və peşə” sözləri ilə əvəz edilsin.

1.8. 42.2-ci maddə ləğv edilsin.

1.9. 44.2-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Azərbaycan Respublikasında xarici ölkələrin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsinə (nostrifikasiyasına), xarici ölkələrdə verilən təhsil haqqında sənədlərin tanınması ilə əlaqədar göstərilən xidmətlərə və həmin xidmətlərlə əlaqədar siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən digər xidmətlərə görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş məbləğdə xidmət haqqı ödənilir.”.

1.10. 45-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

“45.1. Bu Qanunun tələblərinin pozulmasına görə hüquqi, fiziki və vəzifəli şəxslər qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

45.2. Bu Qanunun 17.4-cü və 44.2-ci maddələrinə əsasən tətbiq edilən xidmət haqqı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) işçilərinin sosial müdafiəsinin gücləndirilməsi məqsədi ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) hesabına köçürülür. Bu vəsaitin istifadə qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.”.

**Maddə 2.** “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 23, № 8, maddə 428, № 12 (I kitab), maddələr 676, 698; 2005, № 1, maddə 1, № 6, maddə 462, № 8, maddə 684, № 10, maddələr 873, 905, № 12, maddə 1083; 2006, № 3, maddələr 223, 225, № 6, maddə 481, № 12, maddələr 1015, 1029; 2007, № 2, maddə 80, № 12, maddə 1203; 2008, № 3, maddə 158, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1047; 2009, № 1, maddə 5, № 2, maddə 56, № 3, maddə 160, № 7, maddə 519, № 12, maddə 947; 2010, № 4, maddə 276, № 6, maddə 485, № 10, maddə 840, № 11, maddə 939; 2011, № 1, maddə 12, № 4, maddələr 245, 264, № 11, maddə 985, № 12, maddə 1100; 2012, № 1, maddə 4, № 6, maddələr 508, 518, № 7, maddə 646, № 10, maddə 947, № 12, maddələr 1216, 1227, 1229; 2013, №3, maddə 213, №5, maddə 474, №11, maddələr 1269, 1279, 1299, 1301, 1308, № 12, maddələr 1485, 1504; 2014, № 1, maddə 6, № 5, maddə 468, № 6, maddələr 603, 605, № 7, maddələr 774, 780, № 11, maddələr 1345, 1370; 2015, № 12, maddə 1432; 2016, № 1, maddələr 15, 36, № 4, maddə 630, № 5, maddə 849, № 6, maddə 1014, № 10, maddə 1605, № 11, maddələr 1753, 1776, 1780, 1790, № 12, maddələr 2006, 2051; 2017, № 3, maddələr 337, 341, № 5, maddə 742, № 6, maddə 1028, № 7, maddə 1308, № 8, maddə 1506, № 12 (I kitab), maddə 2265; 2018, № 3, maddə 405, № 4, maddələr 639, 647, № 6, maddələr 1186, 1194, № 7 (I kitab), maddələr 1415, 1444, № 8, maddə 1675, № 12 (I kitab), maddə 2489; 2019, № 1, maddə 45, № 4, maddələr 571, 596, № 5, maddə 797, № 7, maddələr 1176, 1181, 1190, 1192, № 8, maddələr 1360, 1363, 1371, № 11, maddələr 1681, 1694) 2.0.18-ci və 32-ci maddələri ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 19 may 2020-ci il*

# 1700-dən artıq müəllimin iştirakı ilə onlayn forum

İyulun 8-də Təhsil Nazirliyi, Milli Məclisin Elm və təhsil komitəsi, Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının birgə təşkilatçılığı ilə tədris ilinin yekununa dair onlayn forum keçirilib.

“Virtual məktəb” platforması üzərindən təşkil olunan virtual tədbirə respublikanın müxtəlif bölgələrini təmsil edən 1700-dən artıq müəllim və təhsil işçisi qatılıb. Forumda Təhsil naziri Ceyhun Bayramov, millət vəkilləri Bəxtiyar Əliyev və Şahin Seyidzadə də iştirak edib.

Koronavirus pandemiyası ilə əlaqədar distant təhsil formatına keçən Azərbaycan təhsil sistemi və müvafiq istiqamətdə görülən işlər haqqında geniş məlumat verən Təhsil naziri Ceyhun Bayramov bu dövrdə təhsildə fasiləsizliyin və davamlılığın təmin olunması üzrə teledərslər, videodərslər və digər elektron tədris resurslarından səmərəli istifadə olunduğunu xüsusi qeyd edib. “Dərs vaxtı” və “Virtual məktəb” imkanları vasitəsilə təhsilalanların təhsildən geri qalmaması, təhsilverənlərin böyük zəhmət və fədakarlıqlarından söz açan Təhsil naziri post-pandemiya dövrü üçün təhsil sisteminin əsas hədəflərini açıqlayıb və qarşıda duran vəzifələri diqqətə çatdırıb.

Təhsil sahəsində yeni çağırışlar və əsas istiqamətlər haqqında danışan millət vəkili Bəxtiyar Əliyev bu müddətdə qanunverici orqanda da təhsil sahəsində bir çox normativ-hüquqi sənədlərin hazırlanaraq qəbul olunduğunu bildirib. Millət vəkili qeyd edib ki, rəhbəri olduğu Elm və təhsil komitəsi pandemiya şəraitində təhsillə bağlı bir sıra onlayn görüş, iclas və tədbirlər təşkil edib. Bəxtiyar Əliyev Təhsil Nazirliyi ilə sıx əməkdaşlıqda çalışdıqlarını və birgə addımların atılması istiqamətindəki fəaliyyəti müsbət qiymətləndirib.

Millət vəkili Şahin Seyidzadə tədris ilində görülən işlər, pandemiya şəraitində ənənəvi təhsilin virtual təhsilə transferi, post-pandemiya dövrü üçün fəaliyyətlər, o cümlədən, onlayn platformalarda müəllimlərin və təhsilin inkişafı istiqamətində həyata keçirilən tədbirlər barədə qısa məlumat verib, təhsil işçilərini və AGMA-nı gələcək addımlarda təşəbbüs və təkliflərlə çıxış etməyə dəvət edib.

Sonra Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının keçdiyi yol və gördüyü işlər, pandemiya şəraitində və post-pandemiya dövrü üçün fəaliyyəti, gələcək tədbirlər barədə təqdimat olub.

Forum qarşılıqlı fikir mübadiləsi şəklində davam etdirilib, müəllimlərin sualları cavablandırılıb, fikir və təklifləri dinlənilib.

# UFAZ-da onlayn formatda ilk “Məzun Günü”

İyulun 8-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) nəzdində fəaliyyət göstərən Azərbaycan-Fransız Universitetində (UFAZ) ilk “Məzun Günü” keçirilib.



“Microsoft Teams” platforması üzərindən onlayn formatda təşkil olunan tədbirdə Təhsil naziri Ceyhun Bayramov, Fransanın Azərbaycandakı səfiri Zakari Qros, Azərbaycanın Fransadakı səfiri Rəhman Mustafayev, Strasburq Universitetinin xarici əlaqələr üzrə prorektoru İrini Tsamadu Jakoberger, ADNSU-nun rektoru Mustafa Babanlı, UFAZ-ın direktoru Vazeh Əskərov, baş katib Şarlot Payen, yerli və xarici müəllim heyəti, məzunlar, tələbələr və əməkdaşlar iştirak edib.

Təhsil naziri Ceyhun Bayramov çıxışında fransız həmkarlarla birgə səylər sayəsində əldə edilən müsbət nəticələrdən söz açıb. Nazir bildirib ki, bu əməkdaşlıq Fransa və Azərbaycan arasındakı əlaqələri inkişaf etdirəcək, həm də Azərbaycanda insan kapitalının inkişafına töhfə verəcək. Ceyhun Bayramov qeyd edib ki, UFAZ Azərbaycan və Fransa arasında ikitərəfli münasibətlərdə uğur hekayəsi kimi də qiymətləndirilə bilər.

Fransanın Azərbaycandakı səfiri Zakari Qros da öz növbəsində bütün UFAZ tələbələrini məzun olmaları münasibətilə təbrik edib. Zakari Qros qeyd edib ki, biz tədricən Fransa-Azərbaycan tədqiqatçılarının, işçilərinin, mühəndis və alimlərinin böyüyən cəmiyyətini təşkil edə biləcəyik.

Onlayn tədbirə qoşulan Azərbaycanın Fransadakı səfiri Rəhman Mustafayev UFAZ-ı iki ölkə arasındakı strateji tərəfdaşlığın çox vacib və güclü simvolu kimi qiymətləndirib.

ADNSU-nun rektoru Mustafa Babanlı da “Məzun Günü” ilə bağlı hər kəsi təbrik edərək deyib ki, UFAZ öz tələbələrini verdiyi elmi bilik və peşə bacarıqlarından əlavə həm də həyata hazırlayır.

Daha sonra çıxış edən Strasburq Universitetinin xarici əlaqələr üzrə prorektoru xanım İrini Tsamadu Jakoberger, UFAZ-ın baş katibi Şarlot Payen UFAZ layihəsini vacib bir nailiyyət kimi qiymətləndirib, məzunları təbrik və bütün kollektivə təşəkkür ediblər.

Çıxışlardan sonra UFAZ-ın 4 illik fəaliyyəti ərzində maraqlı anların və tələbələrin uğurlarının əks olunduğu şəkillər və videogörüntülər nümayiş olunub.

Tədbirin davamında oxuduqları ixtisaslar üzrə yaxşı nəticə göstərən tələbələrdən İradə Bünyatova, Süleyman Qafarlı və Məryəm İsmayılova UFAZ haqqında təəssüratlarını bölüşüb.

Qeyd edək ki, 2016-cı ildə UFAZ-ın I kursuna qəbul olan 141 tələbədən 125 nəfəri bu il məzun olur. UFAZ-ın 2020-2021-ci il magistratura pilləsinə qəbul olan 80 tələbədən 47 nəfəri UFAZ tələbəsidir. 10 UFAZ tələbəsi TOTAL təqaüdünü qazanaraq Fransanın ən aparıcı universitetlərində magistratura pilləsi üzrə təhsil almaq imkanı əldə edib. 10-dan çox tələbə müxtəlif xarici universitetlərin magistratura pilləsinə qəbul alıb. UFAZ-ın 17 tələbəsi öz ixtisası üzrə iş tapmağa nail olub.

Xatırladaq ki, UFAZ Azərbaycan və Fransa prezidentlərinin təşəbbüsü ilə 2016-cı ildən fəaliyyətə başlayıb. UFAZ-da təhsil alan tələbələr ADNSU ilə yanaşı Fransanın Strasburq və Renn-1 universitetlərinin də diplomlarını əldə edirlər.

2020-ci ilin sentyabr ayından etibarən tədris olunacaq magistratura proqramlarında da iki diplom təmin edilir.

# Təhsil Nazirliyi və Dövlət İmtahan Mərkəzinin birgə məlumatı

⇦ **Əvvəli səh.1**

Bəzi xarici ölkələrin təhsil müəssisələrinə tələbə qəbulu prosesinin yaxın dövrdə yekunlaşacağını nəzərə alaraq, məzunlar tərəfindən həmin təhsil müəssisələrinə öz attestatlarının vaxtında təqdim edilməsi vacib şərtlərdən biridir.

Vətəndaşların təhsil almaq hüquqlarını təmin etmək məqsədilə təhsillərini xarici ali təhsil müəssisələrində davam etdirmək niyyətində olan ümumi təhsil pilləsinin məzunlarına müstəsna hal kimi buraxılış imtahanlarında iştirak etmədən attestatların verilməsi qərara alınmışdır. Bu gündən başlayaraq xarici ali təhsil müəssisələrinə qəbul olunmaq üçün müraciət etmiş məzunlar təhsil aldıqları təhsil müəssisələrinə müraciət edərək attestatlarını ala bilərlər.

Məlumat üçün bildiririk ki, iyunun 10-dan başlayaraq bütün şəhər və rayonlarda (9 illik) və tam (11 illik) orta təhsil səviyyəsi üzrə hər həftə 2 dəfə olmaqla buraxılış (qəbul) imtahanları keçirilmiş, həmin imtahanlarda ümumilikdə üç həftə ərzində 133338 məzun iştirak etmişdir. Bununla yanaşı xüsusi karantin rejimi tətbiq edilən bir sıra şəhər və rayonlarda buraxılış (qəbul) imtahanları ölkədə mövcud olan sanitar-epidemioloji vəziyyətdən asılı olaraq təşkil ediləcək və imtahanların tarixləri barədə ictimaiyyətə əlavə olaraq məlumat veriləcək.

Xatırladaq ki, Təhsil Nazirliyi və Dövlət İmtahan Mərkəzinin birgə razılığına əsasən, ictimai sağlamlığın qorunması ilə bağlı həyata keçirilən tədbirlərə uyğun olaraq 9 illik və 11 illik orta təhsil bazasında kolleclərə, eləcə də ali təhsil müəssisələrinə sənəd verməyən şagirdlər buraxılış imtahanlarında iştirak etməyə bilərlər. Qeyd edək ki, sərtləşdirilmiş karantin rejimi tətbiq olunan rayon və şəhərlərdə 11-ci sinif təhsil bazasında imtahan verməli olan, lakin ali və ya orta ixtisas təhsili müəssisələrinə sənəd verməyən şagirdlərin sayı 2785 nəfərdir.

Bu imtahanlarda iştirak etməyən 9 və 11-ci sinif məzunları üçün əlavə qeydiyyat tələb olunmadan sentyabr ayında yenidən buraxılış imtahanlarının təşkil olunması və həmin şəxslərin yekun qiymətləndirilməsinin aparılaraq onlara attestat verilməsi nəzərdə tutulur.

Azərbaycan Respublikasının ali və ya orta ixtisas təhsili müəssisələrinə sənəd verənlər isə imtahanlarda iştirak etməlidirlər.

# "Təhsil haqqında" və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 104-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2005-ci il 1 mart tarixli 203 nömrəli, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli, "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2013-cü il 8 iyul tarixli 939 nömrəli, "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2014-cü il 26 dekabr tarixli 432 nömrəli, "Azərbaycan Turizm və Menecment Universitetinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2015-ci il 21 dekabr tarixli 710 nömrəli, "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2016-cı il 4 avqust tarixli 1007 nömrəli və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1532-VQ nömrəli Qanununun tətbiqi barədə" 2019-cu il 27 may tarixli 711 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Təhsil haqqında" və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 104-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 17.4-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, peşə təhsili üzrə qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə edilmiş bilik, bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi və tanınması xidmətləri ilə əlaqədar digər xidmətlərin siyahısını və göstərilən xidmətlərə görə ödəniləcək haqların məbləğini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla üç ay müddətində təsdiq etsin;

1.2. həmin Qanunun 44.2-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, Azərbaycan Respublikasında xarici ölkələrin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası), xarici ölkələrdə verilən təhsil haqqında sənədlərin tanınması xidmətləri ilə əlaqədar digər xidmətlərin siyahısını və göstərilən xidmətlərə görə ödəniləcək haqların məbləğini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla üç ay müddətində təsdiq etsin;

1.3. həmin Qanunun 45.2-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, Azərbaycan Respublikası Təhsil Nazirliyi işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə həmin Nazirliyin hesabına köçürülən vəsaitdən istifadə qaydasını iki ay müddətində təsdiq etsin;

1.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 mart tarixli 203 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 3, maddə 161, № 12, maddə 1102; 2007, № 10, maddə 947; 2008, № 11, maddə 970; 2009, № 12, maddə 983; 2010, № 2, maddə 83; 2011, № 2, maddə 85; 2012, № 4, maddə 291, № 6, maddə 531, № 9, maddə 854; 2016, № 11, maddə 1805; 2017, № 7, maddə 1355, № 12 (I kitab), maddə 2312; 2019, № 3, maddə 403, № 5, maddə 848, № 11, maddə 1718) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

2.1. 8.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

"8.8. təhsil müəssisələrinin akkreditasiyasının həyata keçirilməsini təmin edir;";

2.2. 8.10-1-ci bəndə "təhsil proqramlarını" sözlərindən sonra "(kurikulumları)" sözü əlavə edilsin;

2.3. 9.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

"9.5. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təhsil fəaliyyəti üçün verilmiş lisenziyanın tələblərinə və şərtlərinə riayət olunmasına nəzarət etmək;".

**3.** "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 685; 2012, № 3, maddə 197, № 4, maddə 289, № 6, maddə 532; 2016, № 1, maddə 76, № 11, maddələr 1804, 1828, № 12, maddə 2086; 2017, № 7, maddə 1360, № 10, maddə 1800, № 12 ( I kitab), maddə 2313; 2018, № 2, maddə 216, № 12 (I kitab), maddə 2545; 2019, № 5, maddə 848, № 7, maddə 1229, № 8, maddə 1398; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 may tarixli 1024 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.1. "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 1.0.48-ci, 1.0.54-cü, 1.0.55-ci maddələrində, 7.2-ci maddəsinin birinci cümləsində, 9.3-cü maddəsində, 14.8-1-ci maddəsində, 14.11-ci maddəsinin birinci cümləsində, 14.20-ci maddəsinin ikinci cümləsində, 15.3-cü maddəsində, 16.4-cü maddəsinin birinci cümləsində, 17.4-cü maddəsində (hər üç halda), 19.14-cü maddəsinin üçüncü cümləsində, 20.2-ci maddəsində, 21.2-1-ci maddəsinin ikinci cümləsində, 22.5-ci, 22.5-1-ci, 22.11-ci, 22.12-ci maddələrində, 22.14-cü maddəsinin ikinci cümləsində, 22.16-cı, 26.1-1-ci, 26.5-2-ci, 26.5-3-cü maddələrində, 30.2-ci maddəsinin birinci cümləsində, 36-1.1-ci, 36-1.2.4-cü, 36-1.3-cü, 36-2.1-ci, 36-2.2-ci maddələrində, 44.1-1-ci maddəsində (hər iki halda), 44.2-ci maddəsinin ikinci cümləsində (hər iki halda), 45.2-ci maddəsində (hər üç halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının və 22.11-ci (elmi dərəcələrin verilməsi qaydasının müəyyən edilməsi üzrə), 22.12-ci maddələrində, 22.14-cü maddəsinin ikinci cümləsində (elmi dərəcələrin verilməsi qaydasının müəyyən edilməsi üzrə), 22.16-cı maddəsində, 30.2-ci maddəsinin birinci cümləsində (dövlət ali təhsil müəssisələri rəhbərlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi üzrə), 44.1-1-ci maddəsində (birinci halda) nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini, habelə həmin Qanunun 29.0.1-ci (təhsil sahəsində vahid dövlət siyasətinin müəyyənləşdirilməsi üzrə), 29.0.2-ci, 29.0.3-cü (təhsil sisteminin inkişafı üçün müxtəlif istiqamətli dövlət proqramlarının təsdiq edilməsi üzrə), 29.0.7-ci (təhsil sahəsinin inkişafına ayrılan dövlət büdcəsi vəsaitinin həcminin müəyyən edilməsi üzrə), 29.0.13-cü (dövlət ali təhsil müəssisələri rəhbərlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi üzrə), 29.0.16-cı (xüsusi təyinatlı ali təhsil müəssisələri və ali təhsil əsasında xüsusi təyinatlı əlavə təhsil müəssisələrinin nizamnamələrinin təsdiq edilməsi üzrə), 29.0.34-cü, 29.0.35-ci (dövlət təhsil müəssisələri işçilərinin əməyinin stimullaşdırılmasının, o cümlədən onların mükafatlandırılmasının həyata keçirilməsi, xüsusi istedadı ilə fərqlənən təhsilalanlar üçün adlı təqaüdlərin təsis edilməsi üzrə) maddələrində nəzərdə tutulmuş vəzifələri Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

3.2. 2.1-1-ci bənd ləğv edilsin;

3.3. 2.2-ci və 2.3-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

"2.2. həmin Qanunun 6.3-cü, 10.4-cü maddələrində, 11.5-ci maddəsinin birinci cümləsində, 12.2-ci, 14.14-cü, 14.16-cı maddələrində, 18.4-cü maddəsinin ikinci cümləsində, 19.5-ci, 19.8-ci, 21.5-ci maddələrində, 22.3-cü maddəsinin beşinci cümləsində, 22.4-cü maddəsinin ikinci cümləsində, 22.6-cı maddəsinin ikinci cümləsində, 24.3-cü maddəsində, 24.5-ci maddəsinin birinci cümləsində, 26.2-ci, 26.4-cü maddələrində, 26.5-1-ci maddəsinin ikinci cümləsində, 26.6-cı, 27.3-cü, 27.4-cü, 28.1-ci, 28.3-cü maddələrində, 30.8-ci maddəsinin birinci cümləsində, 32.3.13-cü (ümumi təhsil pilləsində təhsilalanların yekun attestasiyası ilə bağlı biliyin yenidən qiymətləndirilməsi üzrə), 36.3-cü, 36.5-ci, 41.1-ci maddələrində, 44.2-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının və 14.20-ci maddəsinin ikinci cümləsində, 17.4-cü maddəsində (hər üç halda), 21.2-1-ci maddəsinin ikinci cümləsində, 22.11-ci (doktoranturaların yaradılması, doktoranturaya qəbul qaydalarının müəyyən edilməsi üzrə) maddəsində, 26.1-1-ci, 26.5-2-ci, 26.5-3-cü, 36-1.1-ci, 36-1.2.4-cü, 36-2.2-ci maddələrində, 44.2-ci maddəsinin ikinci cümləsində (hər iki halda), 45.2-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini, o cümlədən həmin Qanunun 29.0.1-ci (təhsil sahəsində vahid dövlət siyasətinin həyata keçirilməsinin təmin edilməsi üzrə), 29.0.4-cü, 29.0.7-ci (dövlət təhsil qrantlarının məbləğinin müəyyən edilməsi üzrə), 29.0.8-ci, 29.0.9-cu, 29.0.12-ci (təhsil pillələri üzrə dövlət təhsil standartlarının təsdiq edilməsi üzrə), 29.0.14-cü, 29.0.15-ci, 29.0.16-cı ("Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət tərəfindən yaradılan ali təhsil müəssisələrinin nizamnamələrinin, Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq edilməsi, habelə xüsusi təyinatlı orta ixtisas təhsili, ümumi təhsil müəssisələri, orta ixtisas təhsili əsasında xüsusi təyinatlı əlavə təhsil müəssisələrinin nizamnamələrinin təsdiq edilməsi üzrə), 29.0.20-ci, 29.0.21-ci (xarici ölkələrin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası) qaydalarının müəyyən olunması üzrə), 29.0.22-ci, 29.0.23-cü, 29.0.25-ci, 29.0.28-ci (təhsil müəssisələrinin akkreditasiyası qaydalarının müəyyən edilməsi üzrə), 29.0.28-1-ci (xidmət haqlarının məbləğinin müəyyən edilməsi üzrə), 29.0.29-cu (təhsil müəssisələrində təhsilverənlərin (dövlət ümumi təhsil və peşə təhsili (tam orta təhsil üzrə təhsilverənlərə münasibətdə) müəssisələrində təhsilverənlər istisna olmaqla) attestasiyasının, ümumi təhsil pilləsində təhsilalanların yekun attestasiyasının aparılması qaydalarının müəyyən edilməsi üzrə), 29.0.32-ci və 29.0.43-cü (dövlət ümumi təhsil və peşə təhsili (tam orta təhsil üzrə təhsilverənlərə münasibətdə) müəssisələrinin təhsilverənlərinin sertifikatlaşdırılması qaydasının müəyyən edilməsi üzrə) maddələrində nəzərdə tutulmuş vəzifələri Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.3. həmin Qanunun 7.3-cü, 13.3-cü, 18.6-cı, 22.3-1-ci maddələrində, 26.5-1-ci maddəsinin birinci cümləsində, 30.2-ci maddəsinin üçüncü cümləsində (yerli icra hakimiyyəti orqanlarının tabeliyindəki məktəbəqədər təhsil müəssisələri istisna olmaqla, digər dövlət təhsil müəssisələrinin elmi və pedaqoji şuralarının yaradılması və fəaliyyəti üzrə), 30.5-ci maddəsinin ikinci cümləsində, 32.3.13-cü (ümumi təhsil pilləsində təhsilalanların yekun attestasiyası ilə bağlı biliyin yenidən qiymətləndirilməsi istisna olmaqla), 38.5-ci və 42.1-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının, habelə 7.2-ci maddəsinin birinci cümləsində, 9.3-cü maddəsində, 16.4-cü maddəsinin birinci cümləsində, 19.14-cü maddəsinin üçüncü cümləsində, 30.2-ci maddəsinin birinci cümləsində (dövlət ali təhsil müəssisələri, peşə təhsili müəssisələri, Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində olmayan təhsil müəssisələri və yerli icra hakimiyyəti orqanlarının tabeliyində olan məktəbəqədər təhsil müəssisələri istisna olmaqla, digər dövlət təhsil müəssisələrinin rəhbərlərinin vəzifəyə təyin edilməsi üzrə), 36-1.3-cü, 36-2.1-ci maddələrində və 45.2-ci maddəsinin birinci cümləsində (hər iki halda) nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini, o cümlədən həmin Qanunun 29.0.1-ci (təhsil sahəsində vahid dövlət siyasətinin həyata keçirilməsinin təmin edilməsi üzrə), 29.0.3-cü (təhsil sisteminin inkişafı üçün müxtəlif istiqamətli dövlət proqramlarının icrasına nəzarətin həyata keçirilməsi üzrə), 29.0.5-ci, 29.0.6-cı, 29.0.11-ci ("Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi" dövlət elektron məlumat sisteminin yaradılması və ondan istifadənin təmin edilməsi üzrə), 29.0.12-ci (təhsilin müvafiq dövlət standartlarına uyğun təşkilinə nəzarətin həyata keçirilməsi üzrə), 29.0.13-cü (dövlət ali təhsil müəssisələri, peşə təhsili müəssisələri, Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində olmayan təhsil müəssisələri və yerli icra hakimiyyəti orqanlarının tabeliyindəki məktəbəqədər təhsil müəssisələri istisna olmaqla, digər dövlət təhsil müəssisələri rəhbərlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi üzrə), 29.0.16-cı (Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin (dövlət adından yaradılan publik hüquqi şəxslər istisna olmaqla) tabeliyində yaradılan təhsil müəssisələrinin (ali təhsil müəssisələri istisna olmaqla) nizamnamələrinin təsdiq edilməsi, bələdiyyə və özəl təhsil müəssisələrinin nizamnamələrinə rəyin verilməsi üzrə), 29.0.17-ci, 29.0.18-ci, 29.0.21-ci (xarici ölkələrin ali təhsil sahəsində ixtisaslarının tanınmasının və ekvivalentliyinin müəyyən edilməsinin (nostrifikasiyasının) həyata keçirilməsi üzrə), 29.0.26-cı, 29.0.27-ci, 29.0.28-ci (təhsil müəssisələrinin akkreditasiyasının həyata keçirilməsi üzrə), 29.0.29-cu (ümumi təhsil pilləsində təhsilalanların yekun attestasiyası istisna olmaqla, təhsilalanların attestasiyasının aparılması qaydasının müəyyən edilməsi üzrə), 29.0.30-cu, 29.0.32-ci, 29.0.33-cü, 29.0.36-cı (yerli icra hakimiyyəti orqanlarının tabeliyindəki məktəbəqədər təhsil müəssisələri istisna olmaqla, digər dövlət təhsil müəssisələrinin texniki vasitələrlə təminatının həyata keçirilməsi üzrə), 29.0.37-ci, 29.0.38-ci, 29.0.39-cu, 29.0.42-ci (ümumi təhsili həyata keçirən təhsil müəssisələrində ümumtəhsil fənləri üzrə təhsilalanların biliyinin yekun attestasiyası istisna olmaqla) və 29.0.43-cü (sertifikatlaşdırmanın həyata keçirilməsi üzrə) maddələrində nəzərdə tutulmuş vəzifələri Azərbaycan Respublikasının Təhsil Nazirliyi həyata keçirir;";

3.4. 2.4-cü bənddə (hər iki halda) ismin müvafiq hallarında "yekun qiymətləndirilməsi (attestasiyası)" sözləri "yekun attestasiyası" sözləri ilə əvəz edilsin;

3.5. aşağıdakı məzmunda 2.4-1-ci, 2.5-1-ci və 2.7-1-ci bəndlər əlavə edilsin:

"2.4-1. həmin Qanunun 1.0.55-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi nəzərdə tutulur;";

"2.5-1. həmin Qanunun 29.0.24-cü maddəsində nəzərdə tutulmuş vəzifəni Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi həyata keçirir;";

"2.7-1. həmin Qanunun 20.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;";

3.6. 2.8-ci bəndə hər iki halda "dövlət ali təhsil müəssisələri" sözlərindən sonra ", Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin (dövlət adından yaradılan publik hüquqi şəxslər istisna olmaqla) təklifi əsasında onların tabeliyində yaradılan təhsil müəssisələri" sözləri əlavə edilsin, həmin bənddən birinci halda "və vəzifədən azad edilməsi" sözləri çıxarılsın, "müvafiq icra hakimiyyəti orqanının" sözləri "orqanın (qurumun)" sözləri ilə, "nizamnamələri Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilən dövlət təhsil müəssisələri istisna olmaqla," sözləri "xüsusi təyinatlı təhsil müəssisələri və Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, ali təhsil müəssisələrindən başqa" sözləri ilə, "və yerli icra hakimiyyəti orqanları" sözləri ", yerli icra hakimiyyəti orqanları və dövlət adından yaradılan publik hüquqi şəxslər" sözləri ilə əvəz edilsin;

3.7. aşağıdakı məzmunda 2.8-1-ci bənd əlavə edilsin:

"2.8-1. həmin Qanunun 30.2-ci maddəsinin birinci cümləsində (dövlət ali təhsil müəssisələri, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının tabeliyində yaradılan təhsil müəssisələri istisna olmaqla, digər dövlət təhsil müəssisələri rəhbərlərinin vəzifəyə təyin edilməsi üzrə) nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini, habelə 29.0.7-ci (özünüidarəetmə prinsipi əsasında fəaliyyət göstərən dövlət təhsil müəssisələri istisna olmaqla, digər dövlət təhsil müəssisələrinin maliyyələşdirilməsinin həyata keçirilməsi üzrə), 29.0.13-cü (dövlət ali təhsil müəssisələri, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının tabeliyində yaradılan təhsil müəssisələri istisna olmaqla, digər dövlət təhsil müəssisələri rəhbərlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi üzrə), 29.0.35-ci (xüsusi istedadı ilə fərqlənən təhsilalanlar üçün məqsədli təqaüdlərin təsis edilməsi üzrə) maddələrində nəzərdə tutulmuş vəzifələri, Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, tabeliyindəki dövlət təhsil müəssisələrinə münasibətdə dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər (dövlət adından yaradılan publik hüquqi şəxslər istisna olmaqla) həyata keçirirlər;";

3.8. 2.9-cu bənddən ikinci halda "və vəzifədən azad edilməsi" sözləri çıxarılsın, həmin bəndə "və 30.2-ci maddəsinin" sözlərindən əvvəl "nəzərdə tutulmuş orqanın (qurumun)" sözləri əlavə edilsin;

3.9. 2.10-cu bənddə "müvafiq icra hakimiyyəti orqanının" sözləri "orqanın (qurumun)" sözləri ilə əvəz olunsun və həmin bəndə "Peşə Təhsili üzrə Dövlət Agentliyi" sözlərindən sonra "qismində Azərbaycan Respublikasının Təhsil Nazirliyi" sözləri əlavə edilsin;

3.10. 2.12.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.12.1. nizamnamə fondunun təsdiq edilməsi və dəyişdirilməsi, habelə Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, nizamnamənin təsdiq edilməsi və dəyişdirilməsi üzrə səlahiyyətləri, Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Azərbaycan Respublikasının Nazirlər Kabineti;";

3.11. 2.12.2-ci yarımbəndə "icra hakimiyyəti orqanları" sözlərindən sonra "və dövlət adından yaradılan publik hüquqi şəxslər" sözləri əlavə edilsin.

**4.** Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 8 iyul tarixli 939 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 804; 2016, № 11, maddə 1803; 2017, № 5, maddələr 787, 802, № 7, maddə 1363; 2018, № 4, maddə 698; 2019, № 3, maddə 401; 2020, № 2, maddə 106; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 iyun tarixli 1056 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının Nizamnaməsi"nin 8.13.7-ci yarımbəndindən "Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada" sözləri çıxarılsın.

**5.** Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli 432 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 12, maddə 1585; 2016, № 7, maddə 1250, № 11, maddə 1803; 2017, № 5, maddələr 789, 802, № 7, maddə 1366; 2018, № 4, maddə 697; 2019, № 3, maddə 402, № 5, maddə 856, № 7, maddə 1230; 2020, № 2, maddə 103; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 iyun tarixli 1056 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 8.12.7-ci yarımbəndindən "Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada" sözləri çıxarılsın.

**6.** Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 dekabr tarixli 710 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 12, maddə 1464; 2016, № 11, maddə 1803; 2017, № 5, maddələr 791, 802, № 7, maddə 1369; 2018, № 4, maddə 699; 2019, № 3, maddə 402, № 5, maddə 856; 2020, № 2, maddə 103; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 iyun tarixli 1056 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Turizm və Menecment Universitetinin Nizamnaməsi"nin 7.7.7-ci yarımbəndindən "Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada" sözləri çıxarılsın.

**7.** Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 avqust tarixli 1007 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1368; 2017, № 7, maddə 1372; 2020, № 2, maddə 107) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının Nizamnaməsi"nin 9.11.5-ci yarımbəndindən "Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada" sözləri çıxarılsın.

**8.** "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1532-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 may tarixli 711 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 863; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 iyun tarixli 1057 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 2.2-ci bəndə "19.2-ci," sözlərindən sonra "22.2.4-cü (təhsilalanların yekun attestasiyası ilə bağlı biliyin yenidən qiymətləndirilməsi üzrə)," sözləri əlavə edilsin;

8.2. 2.4-cü bəndə "22.2.4-cü" sözlərindən sonra "(təhsilalanların yekun attestasiyası ilə bağlı biliyin yenidən qiymətləndirilməsi istisna olmaqla)" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 7 iyul 2020-ci il*

# “Ali təhsil müəssisələrində və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25 iyun tarixli 120 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı

“Ali təhsil müəssisələrində və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 10 fevral tarixli 220 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 17 aprel tarixli 996 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə və Azərbaycan Respublikası Təhsil Nazirliyinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Ali təhsil müəssisələrində və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25 iyun tarixli 120 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 564; 2012, № 1, maddə 30, № 11, maddə 1208; 2013, № 9, maddə 1133; 2014, № 2, maddə 201; 2015, № 4, maddə 466, № 8, maddə 964; 2016, № 5, maddə 955, № 12, maddə 2239; 2017, № 4, maddə 642; 2018, № 3, maddə 590, № 11, maddə 2431; 2019, № 10, maddə 1675; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 4 mart tarixli 81 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1-ci hissəyə “təhsil xərclərinin” sözlərindən əvvəl “illik” sözü əlavə edilsin.

**2.** 2-ci hissədə “və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasının magistratura və rezidentura səviyyələrində hər bir təhsilalana düşən” sözləri “magistratura və rezidentura səviyyələrində, habelə Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsi üzrə hər bir təhsilalana düşən illik” sözləri ilə əvəz edilsin.

**3.** Aşağıdakı məzmunda 3-1-ci hissə əlavə edilsin:

“3-1. Ayrı-ayrı elm sahələri üzrə dövlət sifarişi ilə ali təhsil müəssisələrinin doktorantura (dissertantlıq istisna olmaqla) səviyyəsində hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı” təsdiq edilsin (4 nömrəli əlavə).”.

**4.** Həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - “Ayrı-ayrı ixtisaslar üzrə dövlət sifarişi ilə ali təhsil müəssisələrinin bakalavriat və əsas (baza ali) tibb təhsili səviyyəsində hər bir təhsilalana düşən təhsil xərclərinin miqdarı” aşağıdakı redaksiyada verilsin:

### “Ayrı-ayrı ixtisaslar üzrə dövlət sifarişi ilə ali təhsil müəssisələrinin bakalavriat və əsas (baza ali) tibb təhsili səviyyələrində hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı

| İxtisaslar | Hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı (manatla) |
|---|---|
| 1 | 2 |
| Azərbaycan dili və ədəbiyyatı müəllimliyi | 1710 |
| Biologiya müəllimliyi | 1850 |
| Coğrafiya müəllimliyi | 1710 |
| Dil və ədəbiyyat müəllimliyi (dillər üzrə) | 1710 |
| Fizika müəllimliyi | 1850 |
| Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi | 1710 |
| Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi (qızlar üçün fiziki tərbiyə) | 1710 |
| İbtidai sinif müəllimliyi | 1710 |
| İnformatika müəllimliyi | 1710 |
| Kimya müəllimliyi | 1850 |
| Kimya və biologiya müəllimliyi | 1850 |
| Korreksiyaedici təlim | 1710 |
| Məktəbəqədər təhsil | 1710 |
| Məktəbəqədər təlim və tərbiyə | 1710 |
| Musiqi müəllimliyi | 1710 |
| Riyaziyyat müəllimliyi | 1710 |
| Riyaziyyat və informatika müəllimliyi | 1710 |
| Tarix müəllimliyi | 1710 |
| Tarix və coğrafiya müəllimliyi | 1710 |
| Təhsildə sosial-psixoloji xidmət | 1710 |
| Təsviri incəsənət müəllimliyi | 1710 |
| Texnologiya müəllimliyi | 1710 |
| Xarici dil müəllimliyi (dillər üzrə) | 1710 |
| Rəqs müəllimliyi | 1710 |
| Beynəlxalq münasibətlər | 2100 |
| Dinşünaslıq | 2100 |
| Dövlət və ictimai münasibətlər | 2100 |
| Fəlsəfə | 2100 |
| Filologiya (dil və ədəbiyyat göstərilməklə) | 2100 |
| Hüquqşünaslıq | 2100 |
| İslamşünaslıq | 2100 |
| Jurnalistika | 2100 |
| Kitabxanaçılıq və informasiya fəaliyyəti | 2100 |
| Kitabxanaçılıq və informasiya | 2100 |
| Kitabşünaslıq | 2100 |
| Antropologiya | 2100 |
| Politologiya | 2100 |
| Psixologiya | 2100 |
| Regionşünaslıq (regionlar üzrə) | 2100 |
| Sosiologiya | 2100 |
| Tarix | 2100 |
| Tərcümə (dillər üzrə) | 2100 |
| Aktyor sənəti | 2700 |
| Bədii yaradıcılıq və ekran dramaturgiyası | 1710 |
| Teatrşünaslıq | 1710 |
| Kinoşünaslıq | 1710 |
| Bəstəkarlıq | 8200 |
| Dekorativ sənət | 5200 |
| Dekorativ-tətbiqi sənət (sahələr üzrə) | 5200 |
| Dirijorluq | 8200 |
| Dirijorluq (sahələr üzrə) | 8200 |
| Dizayn | 2500 |
| Dizayn (sahələr üzrə) | 2500 |
| Heykəltəraşlıq | 6000 |
| İnstrumental ifaçılıq | 8200 |
| İnstrumental ifaçılıq (sahələr üzrə) | 8200 |
| Solo oxuma | 8200 |
| Musiqişünaslıq | 8200 |
| Muzey, arxiv işi və abidələrin qorunması | 1710 |
| Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması | 1710 |
| Operator sənəti | 2700 |
| Populyar musiqi və caz ifaçılığı (sahələr üzrə) | 1710 |
| Qrafika | 6000 |
| Rejissorluq | 3600 |
| Rəngkarlıq | 6000 |
| Sənətşünaslıq | 2210 |
| Sənətşünaslıq (sahələr üzrə) | 2210 |
| Vokal sənəti (sahələr üzrə) | 8200 |
| Estrada sənəti | 1710 |
| Xalq çalğı alətləri ifaçılığı | 2700 |
| Xoreoqrafiya sənəti (sahələr üzrə) | 1980 |
| Dünya iqtisadiyyatı | 1710 |
| Mühasibat uçotu və audit | 1710 |
| Sənayenin təşkili və idarə olunması | 1710 |
| Kommersiya | 1710 |
| Beynəlxalq ticarət və logistika | 1710 |
| Biznesin idarə edilməsi | 1710 |
| Davamlı inkişafın idarə edilməsi | 1710 |
| Dövlət və bələdiyyə idarəetməsi | 1710 |
| İqtisadiyyat | 1710 |
| Maliyyə | 1710 |
| Marketinq | 1710 |
| Menecment | 1710 |
| Mühasibat | 1710 |
| Statistika | 1710 |
| Biologiya | 1850 |
| Biotexnologiya | 1850 |
| Biotibbi texnologiya mühəndisliyi | 2100 |
| Coğrafiya | 1850 |
| Ekologiya | 1850 |
| Fizika | 1850 |
| Geologiya | 1850 |
| Hidrometeorologiya | 1850 |
| Kimya | 1850 |
| Kompüter elmləri | 1850 |
| Mexanika | 1850 |
| Riyaziyyat | 1850 |
| Kosmik texnologiyalar mühəndisliyi | 2100 |
| Kosmik texnika mühəndisliyi | 2100 |
| Kosmik idarəetmə sistemləri mühəndisliyi | 2100 |
| Aerokosmik mühəndislik | 2100 |
| Aqromühəndislik | 2100 |
| Aviasiya təhlükəsizliyi mühəndisliyi | 2100 |
| Texnoloji maşın və avadanlıqlar mühəndisliyi | 2100 |
| Cihazqayırma mühəndisliyi | 2100 |
| Cihaz mühəndisliyi | 2100 |
| Dəniz naviqasiyası mühəndisliyi | 2100 |
| Dəmiryol nəqliyyatı və təsərrüfatı mühəndisliyi | 2100 |
| Yerüstü nəqliyyat vasitələrinin mühəndisliyi | 2100 |
| Nəqliyyatda daşımaların və idarəetmənin təşkili mühəndisliyi | 2100 |
| Ekologiya mühəndisliyi | 2100 |
| Elektrik mühəndisliyi | 2100 |
| Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi | 2100 |
| Elektrik və elektronika mühəndisliyi | 2100 |
| Elektroenergetika mühəndisliyi | 2100 |
| Energetika mühəndisliyi | 2100 |
| İstilik energetikası mühəndisliyi | 2100 |
| Enerji maşınqayırma mühəndisliyi | 2100 |
| Gəmi energetik qurğularının istismarı mühəndisliyi | 2100 |
| Gəmiqayırma və gəmi təmiri mühəndisliyi | 2100 |
| Hidrogeologiya mühəndisliyi | 2100 |
| Geologiya mühəndisliyi | 2100 |
| Geofizika mühəndisliyi | 2100 |
| Geologiya və geofizika mühəndisliyi | 2100 |
| Geodeziya və xəritəçilik mühəndisliyi | 2100 |
| Geomatika və geodeziya mühəndisliyi | 2100 |
| Hava nəqliyyatının hərəkətinin idarə olunması mühəndisliyi | 2100 |
| Hava nəqliyyatının hərəkətinin təşkili | 2100 |
| Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi | 2100 |
| İnformasiya təhlükəsizliyi | 2100 |
| İnformasiya texnologiyaları | 2100 |
| İnşaat mühəndisliyi | 2100 |
| Mühəndis sistemlərinin və qurğularının tikintisi mühəndisliyi | 2100 |
| Kimya mühəndisliyi | 2100 |
| Kommunikasiya sistemləri mühəndisliyi | 2100 |
| Kompüter mühəndisliyi | 2100 |
| Logistika və nəqliyyat texnologiyaları mühəndisliyi | 2100 |
| Maşın mühəndisliyi | 2100 |
| Avianəqliyyat istehsalatının təşkili mühəndisliyi | 2100 |
| Aviasiya texnikası avadanlıqlarının istismarı mühəndisliyi | 2100 |
| Materialşünaslıq mühəndisliyi | 2100 |
| Materiallar mühəndisliyi | 2100 |
| Dağ-mədən mühəndisliyi | 2100 |
| Mədən mühəndisliyi | 2100 |
| Tikinti materialları və məmulatlarının texnologiyası mühəndisliyi | 2100 |
| Meşə materiallarının və ağac emalının texnologiyası mühəndisliyi | 2100 |
| Meliorasiya və su təsərrüfatı tikintisi mühəndisliyi | 2100 |
| Meliorasiya mühəndisliyi | 2100 |
| Memarlıq | 2590 |
| Metallurgiya mühəndisliyi | 2100 |
| Mexanika mühəndisliyi | 2100 |
| Mexatronika və robototexnika mühəndisliyi | 2100 |
| Mühəndis fizikası | 2100 |
| Neft-qaz qurğuları mühəndisliyi | 2100 |
| Neft-qaz mühəndisliyi | 2100 |
| Nəqliyyat mühəndisliyi | 2100 |
| Nəqliyyat tikintisi mühəndisliyi | 2100 |
| Proseslərin avtomatlaşdırılması mühəndisliyi | 2100 |
| Qida məhsulları mühəndisliyi | 2100 |
| Qida mühəndisliyi | 2100 |
| Çoxişlənən malların texnologiyası mühəndisliyi | 2100 |
| İstehlak mallarının ekspertizası və marketinqi | 2100 |
| Poliqrafiya mühəndisliyi | 2100 |
| Təkrar emal və bərpa texnologiyaları mühəndisliyi | 2100 |
| Metrologiya, standartlaşdırma və sertifikasiya mühəndisliyi | 2100 |
| Radiotexnika və telekommunikasiya mühəndisliyi | 2100 |
| Şəhərsalma | 2100 |
| Sənaye mühəndisliyi | 2100 |
| Uçuş mühəndisliyi | 2100 |
| Hava nəqliyyatında texnoloji proseslərin və istehsalatın təhlükəsizliyi mühəndisliyi | 2100 |
| Yanğın təhlükəsizliyi mühəndisliyi | 2100 |
| Fövqəladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi | 2100 |
| Aqronomluq | 2100 |
| Aqromühəndislik | 2100 |
| Bağçılıq və tərəvəzçilik | 2100 |
| Balıqçılıq və balıqçılıq təsərrüfatı işi | 2100 |
| Balıqçılıq | 2100 |
| Baytarlıq | 2100 |
| Baytarlıq təbabəti | 2100 |
| Bitki mühafizəsi | 2100 |
| Meşəçilik | 2100 |
| Şərabçılıq | 2100 |
| Su bioehtiyatları və akvabitkilər | 2100 |
| Su bioehtiyatları və akvakultura | 2100 |
| Torpaqşünaslıq və aqrokimya | 2100 |
| Yer quruluşu, torpaq və şəhər kadastrı | 2100 |
| Yerquruluşu və daşınmaz əmlakın kadastrı | 2100 |
| Zootexniklik | 2100 |
| Zoomühəndislik | 2100 |
| Bədən tərbiyəsi və idman | 2340 |
| Bədən tərbiyəsi və idmanda reabilitasiya | 2340 |
| Əczaçılıq | 4800 |
| Fizioterapiya və tibbi reabilitasiya | 4800 |
| İdman menecmenti və kommunikasiya | 2340 |
| Məşqçi (idman növü üzrə) | 2340 |
| Məşqçilik | 2340 |
| Nəqliyyat servisi (nəqliyyat növləri üzrə) | 2100 |
| Nəqliyyatda servis (nəqliyyat növləri üzrə) | 2100 |
| Sosial iş | 1710 |
| Tibb bacısı işi | 4800 |
| Turizm və otelçilik | 2100 |
| Turizm bələdçiliyi | 2100 |
| Turizm işinin təşkili | 2100 |
| Hərbi tibb | 5400 |
| Hərbi həkim işi | 5400 |
| Müalicə işi | 5400 |
| İctimai səhiyyə | 4800 |
| Stomatologiya | 4800 |
| Tibbi profilaktika | 4800 |
| Tibb | 5400 |
| Kompozisiya materiallarından müdafiə təyinatlı məmulatların layihələndirilməsi və istehsalı | 2100 |
| Hərbi kompozisiya materialları mühəndisliyi | 2100 |
| Hərbi rabitə vasitələri mühəndisliyi | 2100 |
| Optotexnika | 2100 |
| Optotexnika mühəndisliyi | 2100 |
| Pirotexniki vasitələrin texnologiyası | 2100 |
| Pirotexniki və partladıcı vasitələr mühəndisliyi | 2100 |
| Çoxkanallı radiorele və troposfer rabitəsinin yerüstü aparatlarının hazırlanması, istismarı və təmiri | 2100 |
| Xüsusi təyinatlı texnika və sistemlər | 2100 |
| Sərhəd təhlükəsizliyi və idarəetmə | 2100 |
| Silah və silah sistemlərinin istehsalı texnologiyası | 2100 |
| Silah və silah sistemləri mühəndisliyi | 2100 |
| Sistem mühəndisliyi | 2100 |
| Sistemlər mühəndisliyi | 2100 |
| İnformasiya-təhlil fəaliyyəti | 2100 |
| İctimai təhlükəsizlik | 2100 |
| İctimai təhlükəsizlik və idarəetmə | 2100 |

**Qeyd.** Ali təhsil müəssisəsi tərəfindən dövlət sifarişi ilə hər bir təhsilalana çəkilən faktiki illik xərc təsdiq edilmiş illik təhsil xərclərinin məbləğindən artıq olduğu halda, onun qalan hissəsi həmin ali təhsil müəssisəsi və ya onun tabe olduğu qurum tərəfindən ödənilir.”.

**5.** Həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - “Ayrı-ayrı ixtisaslar üzrə dövlət sifarişi ilə ali təhsil müəssisələrinin və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasının magistratura və rezidentura səviyyələrində hər bir təhsilalana düşən təhsil xərclərinin miqdarı” üzrə:

5.1. adında “və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasının magistratura və rezidentura səviyyələrində hər bir təhsilalana düşən” sözləri “magistratura və rezidentura səviyyələrində, habelə Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsi üzrə hər bir təhsilalana düşən illik” sözləri ilə əvəz edilsin;

5.2. “Hər bir təhsilalana düşən təhsil xərclərinin miqdarı” sütununda “təhsil xərclərinin” sözləri “illik təhsil xərclərinin” sözləri ilə əvəz edilsin;

5.3. “Qeyd”də “xərc” sözü “illik xərc” sözləri ilə və “təhsil xərclərinin” sözləri “illik təhsil xərclərinin” sözləri ilə əvəz edilsin.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş Naziri**

*Bakı şəhəri, 6 iyul 2020-ci il*

---

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 6 iyul tarixli 239 nömrəli Qərarı ilə təsdiq edilmişdir*

**4 nömrəli əlavə**

### Ayrı-ayrı elm sahələri üzrə dövlət sifarişi ilə ali təhsil müəssisələrinin doktorantura (dissertantlıq istisna olmaqla) səviyyəsində hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı

| Elm sahələri | Hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı (manatla) |
|---|---|
| 1 | 2 |
| Riyaziyyat | 2210 |
| Mexanika | 2210 |
| Astronomiya | 2210 |
| Fizika | 2210 |
| Kimya | 2210 |
| Biologiya elmləri | 2210 |
| Yer elmləri | 3640 |
| Aqrar elmlər | 3640 |
| Tibb elmləri | 5980 |
| Texnika elmləri | 2470 |
| Əczaçılıq elmləri | 5980 |
| Antropologiya | 2470 |
| İqtisad elmləri | 2080 |
| Coğrafiya | 2210 |
| Tarix | 2470 |
| Hüquq elmləri | 2470 |
| Filologiya elmləri | 2470 |
| Pedaqogika | 2080 |
| Siyasi elmlər | 2470 |
| Psixologiya | 2470 |
| Sənətşünaslıq | 2470 |
| Sosiologiya | 2470 |
| Memarlıq | 2990 |
| Fəlsəfə | 2470 |
| Milli təhlükəsizlik və hərbi elmlər | 2470 |

**Qeyd.** Ali təhsil müəssisəsi tərəfindən dövlət sifarişi ilə hər bir təhsilalana çəkilən faktiki illik xərc təsdiq edilmiş illik təhsil xərclərinin məbləğindən artıq olduğu halda, onun qalan hissəsi həmin ali təhsil müəssisəsi və ya onun tabe olduğu qurum tərəfindən ödənilir.

# "Ümumi təhsil sahəsində 2019-2020-ci tədris ilinin yekunu və növbəti tədris ilinə hazırlıq"

## Təhsil nazirinin müavininin iştirakı ilə virtual müşavirə keçirilib

İyulun 3-də Təhsil nazirinin müavini Məhəbbət Vəliyevanın iştirakı ilə "Ümumi təhsil sahəsində 2019-2020-ci tədris ilinin yekunu və növbəti tədris ilinə hazırlıq" mövzusunda virtual müşavirə keçirilib. Müşavirədə nazirliyin Ümumi və məktəbəqədər təhsil şöbəsi, Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin əməkdaşları, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin və yerli təhsili idarəetmə orqanlarının rəhbərləri iştirak ediblər.

Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva çıxış edərək 2019-2020-ci tədris ilində əldə edilmiş uğurlar, pandemiyanın təsiri və ona qarşı atılan addımlar haqqında məlumat verib. Ötən dərs ilinin mühüm uğurları əsasən birinci yarımil ilə bağlı olsa da vüsəti və çoxşaxəliliyi ilə diqqəti cəlb edir. Dərs ilinin ikinci yarımilində qazanılmış ən böyük nailiyyət isə pandemiya şəraitində çox çevik şəkildə "Dərs vaxtı" teledərslər layihəsinin həyata keçirilməsi, eləcə də müəllimlərimizin virtual dərslərə qoşulması təşəbbüsüdür. Xüsusi vurğulandı ki, həm teledərslər, həm də virtual dərslər bir-birini məntiqi cəhətdən tamamlamış, resurslardan düzgün istifadəyə yönəlmişdir. Regionlarda şagirdlərin teledərslərə baxışının təbliğ və təşviq edilməsi, yerli müəllimlərin öz şagirdləri üçün əvvəl müxtəlif platformalarda, sonra isə daha mütəşəkkil formada "Virtual məktəb" platformasında dərs keçməsi fəaliyyətin vacib hissəsi olmuşdur. Görülən tədbirlərin nəticəsində şagirdlərin və müəllimlərin sağlamlığının qorunması prioritetini gözləməklə tədris prosesinin davamlılığını təmin etmək mümkün olmuşdur. Nazir müavini həmçinin qarşıdan gələn tədris ili ilə bağlı müvafiq tapşırıqları diqqətə çatdırıb.

Sonra çıxış edən Ümumi və məktəbəqədər təhsil şöbəsinin müdiri Vəfa Yaqublu növbəti tədris ilinə hazırlıq, mövcud vəziyyətin yarada biləcəyi çətinliklər və ona qarşı görüləcək tədbirlər haqqında danışıb. Bu zaman dünya təcrübəsinə istinad olunub, oxşar situasiyaların yaratdığı problemlərdən çıxış yolları təqdim edilib. Pandemiya və post-pandemiya dövründə tədrisin təşkilinin 3 mümkün ssenarisi müzakirə edilib, arzuolunan, mümkün və təxmin edilən ssenarilərin tələb etdiyi strategiyalar nəzərdən keçirilib.

Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin şöbə müdiri Fidan Nəcəfova "Virtual məktəb" layihəsi üzrə yay aylarında nəzərdə tutulan fəaliyyətlərdən, layihənin müəllim və şagirdlər üçün yaratdığı imkanlardan söz açıb. Bildirilib ki, yay aylarında "Virtual məktəb"in fəaliyyəti rəngarəngliyi ilə fərqlənəcəkdir. Burada yalnız şagirdlər, müəllimlər deyil, həm də müəllim olmağa hazırlaşanlar xeyli faydalı materiallar, canlı müzakirələr və mühazirələr tapa bilər.

Sonda müşavirə iştirakçılarının sualları cavablandırılıb, həmçinin yay tətili ərzində müxtəlif mövzularda virtual müşavirələrin keçirilməsi qərara alınıb.

# "Virtual məktəb"də müəllimlər üçün fənlər üzrə ixtisas hazırlığı

İyulun 12-dən "Virtual məktəb"də müəllimlər üçün fənlər üzrə ixtisas hazırlığı təlimlərinə start veriləcək. Təlimlərin keçirilməsində məqsəd müəllimlərə işə qəbul, sertifikasiya və diaqnostik qiymətləndirilmə üzrə təşkil ediləcək imtahanlara hazırlıq üçün dəstək göstərməkdir.

Təlimlər hər həftənin çərşənbə və bazar günləri Azərbaycan dili və ədəbiyyatı, ibtidai sinif, riyaziyyat, informatika, fizika, biologiya, coğrafiya, ingilis dili, rus dili, fransız dili olmaqla 10 ixtisas üzrə keçiriləcək.

Təlimlər barədə ətraflı məlumat hər həftə "Virtual məktəb"in rəsmi "Facebook" səhifəsində paylaşılacaq. Müəllimlər tədbirin linkinə keçid etməklə qeydiyyatdan keçmədən canlı görüşdə iştirak edə biləcəklər.

Ödənişsiz formada təşkil olunacaq bu təlim xidmətindən Azərbaycan və rus bölmələri üzrə müəllimlər faydalana bilərlər.

Qeyd edək ki, yuxarıda adları qeyd olunan təlimlərlə yanaşı, "Virtual məktəb"də müəllimlərin peşəkar inkişafı məqsədi ilə davamlı olaraq "İngilis dilinin danışıq səviyyəsində tədrisi", "Kurikulumun tədrisi", "Elmi-texniki biliklərin gündəlik həyatda tətbiqi", "Rəqəmsal bacarıqların inkişafı", "Tədrisdə interaktiv alətlərin tətbiqi" kimi təlim və vebinarlar təşkil olunur.

# Qocaman universitet - innovasiyalar mərkəzi




**Oruc MUSTAFAYEV**

Bu il 100 illiyini qeyd edən Azərbaycan Dövlət Neft və Sənaye Universiteti şərəfli bir yol keçmiş, bir əsrlik tarixi boyunca nəinki öz ölkəmizin, həmçinin dünyanın başqa ölkələrinin elm, təhsil və sənayesinin inkişafına qiymətli töhfələr vermişdir. ADNSU ali təhsil və elm ocağı olmaqla yanaşı hər zaman innovasiyalar mərkəzi kimi də tanınmışdır.

## ADNSU-da tələbələrin ideyalarına əsaslanan startap və innovativ layihələr geniş vüsət alır



ADNSU-da informasiya texnologiyaları əsaslı innovasiyaların təşviqi və inkişafı 2015-ci ildən sonra intensivləşmişdir. Həmin ilin sentyabrında universitetə rektor təyin olunmuş professor Mustafa Babanlının ilk işlərindən biri təhsil müəssisəsinin bütün fəaliyyətində informasiya texnologiyaları sahəsinin tətbiqi olmuşdur. Rektorun digər bir fəaliyyəti isə tələbələrin ideyalarına əsaslanan startap və innovativ layihələrin vüsət alması idi.

Startap məktəbində ilk olaraq ən kreativ tələbələrə startap, ixtiraçılıq və biznes haqqında ən əsas biliklərin verilməsi məqsədilə təlim aparılması üçün Ukrayna və İsraildən olan mütəxəssislərlə razılığa gəlinib. Məktəbə qeydiyyat 29 dekabr 2015-ci ildə başlanıb, iştirakla bağlı 247 nəfər müraciət edib. Müvafiq yoxlamadan sonra məktəbin ilkin mərhələsində iştirak üçün 100 nəfərin namizədliyi təsdiqlənib. Onlar arasında yerli tələbələrlə yanaşı, digər ali məktəblərin nümayəndələri, həmçinin əcnəbi vətəndaşlar da var idi.

İlk mərhələ 6 ay - 2016-cı ilin yanvarından iyunadək davam edib. Mərkəzin tərəfdaşları və mentorları İqor Peer ("Be Next IT" biznes inkubatoru, İsrail), İnna Malyukova ("Sikorsky Challenge" Startap məktəbi və biznes inkubatoru, Ukrayna) və ABŞ-dan olan mentorumuz Keyt Miller (iki dəfə Azərbaycana gəlib, tələbələrə təlimlər keçib, bəzi layihələrimizi Amerikaya aparmaqda maraqlıdır) iştirakçılara təlimlər keçib. Proqrama görə, ilk 2 ay ərzində qrup təlimlərində startaplar, innovativ biznes haqqında ümumi biliklər verilib, sonrakı iki ay ərzində isə iştirakçıların ilkin təşəbbüs və layihələri ilə bağlı fərdi işlər aparılıb.

30 iyun 2016-cı il tarixində Azərbaycan Dövlət Neft və Sənaye Universitetində startap məktəbinin ilk buraxılışı təşkil olunub və festivalda 15 layihə müvafiq komandalar tərəfindən qonaqlara təqdim edilib. Tədbirdə iştirak edən israilli iş adamları və sərmayəçilər bəzi layihələrin çox asanlıqla dünya bazarına çıxarılmasının mümkünlüyünü də qeyd edib. Elə tədbir günü "Eazi START" Startap və İnnovasiya Mərkəzinin ofisinin rəsmi açılışı baş tutub, qonaqlar startapçı gənclər üçün ADNSU-da yaradılmış şəraitlə tanış olublar.

"Eazi START" Startap və İnnovasiya Mərkəzinin dəstəyi ilə ənənə halına çevrilmiş 4 dəfə Startap və İnnovasiya Festivalının, Hackatonlar keçirilmişdir və bu ilin sonunda V Startap və İnnovasiya Festivalının keçirilməsi nəzərdə tutulur. Bundan savayı, ayda ən azı bir dəfə startaplarla bağlı seminarların və respublika səviyyəsində yarışlarda iştirak həyata keçirilir. Qeyd edilənlərdən əlavə olaraq cari layihələrin təkmilləşdirilməsi və bazara çıxarılması, imkan daxilində beynəlxalq startap festivallarına qoşulmaq istiqamətində işlər aparılacaq.

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin startap və innovasiya mərkəzi olan "Eazi Start" əsasən, gənclərin innovativ ideyalarının biznes strukturlara çevrilməsinə dəstək göstərmək məqsədilə fəaliyyət göstərir. Bu istiqamətdə hər il universitetdaxili qrant müsabiqələri və startap festivalı təşkil edilməkdədir. Qurumun hədəflərinə yalnız Azərbaycan üçün deyil, həmçinin dünya səviyyəli layihə və məhsulları ortaya çıxarmaq da daxildir. Buna görə də növbəti mərhələdə bu mərkəzin universitet çərçivəsindən kənara çıxaraq, hamı üçün (Azərbaycan vətəndaşları, əcnəbilər) üçün açıq olması, Azərbaycan bölgələrində filialların və müəssisələrin yaradılması da planlaşdırılır. Layihələrimizin Azərbaycandan kənara çıxarılmasını təmin etmək məqsədilə müxtəlif tədbirlərdə iştirak və yeni tərəfdaşlarla əlaqələrin yaradılması üzrə işlər aparılacaqdır. Bu sahədə əsas hədəf ölkələr İsrail, Estoniya, ABŞ və Ukrayna olacaq. Məsələn, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nümayəndə heyəti Ukrayna Milli Texniki Universitetinin təşkil etdiyi ənənəvi "Sikorski Çellenc" (Sikorsky Challenge) startap festivalında hər il iştirak edir. Keçirilən festivallarda ADNSU-nun "Eazi Start" Startap və İnnovasiya Mərkəzinin layihələri nümayiş etdirilir.

2015-ci ildən başlayaraq mərkəzdə 100-dən çox ideyalar nəzərdən keçirilib. Hazırda isə mərkəzdə ümumi 10 layihə üzərində aktiv işlər aparılıb. Bu layihələrin əksəriyyəti respublika və beynəlxalq yarışlara göndərilib, bəzi mükafatlara layiq görülüb.

Uçan və üzən pilotsuz aparatlar üzərində də işlər gedir. Uçan dronlarla əlaqədar Ukrayna şirkəti ilə əməkdaşlıq yolları, həmçinin Azərbaycanda dronların sınağı, istismarı və satışı ilə bağlı qanunvericilik öyrənilir. Mərkəzdə yaradılan dronlar müşahidə, tədqiqat, kənd təsərrüfatı, daşıma kimi məqsədlər üçün istifadə oluna bilər. Mayın ortasında Mərkəzin dronlarından biri universitet daxilində çəkiliş apararaq, ADNSU tələbələrinə ünvanlanan video-çarxın hazırlanmasında fəal iştirak etmişdir. ADNSU startap komandası tərəfindən elektron təhsil sistemi hazırlanıb və artıq istismar dövründədir.

Hazırda mövcud layihələr həm softver, həm də hardver işlərini əhatə edir. Əsasən kompüter proqramları və mobil tətbiqlərlə bağlı olan layihələr "Eazi START" Startap və İnnovasiya Mərkəzində komandaların özləri tərəfindən həyata keçirilir. Görülən işlər əsasən elektron təhsil sistemi, müxtəlif sahələrdə (məs. kənd təsərrüfatı) mobil proqramları, mobil və kompüter oyunlarını əhatə edir. Bundan əlavə, hardver layihələrə də diqqət ayrılır.

Bu işdə universitetin İnformasiya Texnologiyaları Departamenti də yaxından iştirak edərək öz məsləhət və töhfələrini verməkdədir. Mühəndislik işləri isə tələbələrin ixtiyarına verilmiş xüsusi laboratoriyada həyata keçirilir. Hər bir layihə ilə bağlı universitetin müvafiq kafedrasından bir və ya bir neçə müəllim məsləhətçi qismində çıxış edir, tələbələri düzgün yönləndirməyə çalışır.

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti "eazi START" Startap və İnnovasiya Mərkəzi vasitəsilə layihələrin inkişafına daha çox dəstək göstərmək niyyətindədir. Artıq bəzi layihə üzrə prototiplərin hazır olunmasından sonra onların yerli və xarici bazara çıxarılması üçün daha çox işlər görüləcək, tələb və təklifdən asılı olaraq kütləvi istehsal təşkil ediləcək.



# Böyük MÜƏLLİM, sadə İNSAN

## Naqif Nağıyev xatirələr işığında...

⇦ Əvvəli səh.1

**Oruc MUSTAFAYEV**

Elə 2014-cü ildən etibarən Naqif müəllim həm də beynəlxalq fizika olimpiada komandasının rəhbəri oldu. Respublika fənn olimpiadalarının şəffaf, obyektiv, sağlam rəqabət prinsipləri çərçivəsində keçirilməsinə, qaliblərin sadəcə bilik və bacarıqlarına görə seçilməsinə çox diqqət yetirərdi və bunun üçün öz təklif və rəylərini hər zaman bizimlə bölüşərdi. Şagirdlərin yazı işlərinin yoxlanılma prosesi bəzən gecə saat 2-3-ə qədər davam edərdi. Şagirdlərin yazı işlərinə dəfələrcə baxardı. Bir dəfə Respublika fənn olimpiadalarının mükafatlandırma mərasimində münsiflər heyətinin sədrlərindən bir nəfərə söz verilməsi təklif edilmişdi. Mən tərəddüd etmədən qaliblərimizi münsiflər heyəti adından ən gözəl Naqif müəllimin təbrik edəcəyini bildirmiş və onun çıxış etməsi təklifini irəli sürmüşdüm. Naqif müəllim səhnədə çox qısa, ancaq çox mənalı çıxış etmişdi. O, qalibləri, onların müəllimlərini və valideynlərini təbrik etmiş və ardınca isə “Şagirdlərin yazı işlərinin qiymətləndirilməsi prosesi zamanı münsiflər heyətinin işinə qarışmadıqları, sağlam rəqabət mühitinin yaradıldığı üçün hər kəsə münsiflər heyətinin adından təşəkkürümü edirəm” - demişdi.

Naqif müəllim ölkəmizdə fizika üzrə regional və beynəlxalq səviyyədə tanınmış mütəxəssislərdən idi. Onun qonşu ölkələrdən olan fiziklərlə yaxşı əlaqələri var idi və bundan Beynəlxalq Olimpiadalara hazırlıq prosesində çox gözəl istifadə edərdi. Naqif müəllim şagirdlərin seçimindən tutmuş son hazırlıq prosesinə qədər məsələlərə çox obyektiv və şəffaf yanaşardı. Onun rəhbərliyi altında Fizika fənni üzrə beynəlxalq olimpiadalara hazırlıq komandamız 2015-ci ildən bu yana müxtəlif miqyaslı beynəlxalq olimpiadalardan 6 gümüş, 15 bürünc olmaqla 21 medal qazanıb. Daha əvvəllər qazanılan medallarda da Naqif müəllimin çox ciddi əməyi olub, ancaq yuxarıdakı rəqəmlər birbaşa onun rəhbərlik etdiyi illərin statistikasıdır. O, həmçinin olimpiadaçı şagirdlər və məzunlar tərəfindən də çox sevilən və hörmət edilən bir alim idi. Məzunlar yay tətili zamanı ölkəmizə gələndə mütləq onunla görüşər və müxtəlif istiqamətlərdə söhbətlər aparardılar, həmçinin olimpiadalara hazırlıq prosesi zamanı da Naqif müəllim gənclərin təşəbbüslərindən və təkliflərindən istifadə edərdi. Belə ki, beynəlxalq olimpiadalara hazırlıq proqramının və respublika fənn olimpiadalarının fizika fənni üzrə sillabusunun hazırlanması zamanı Naqif müəllim öz təhsillərini Avropanın qabaqcıl universitetlərində davam etdirən gənclərin təkliflərini nəzərə almışdı. Həmçinin o, ölkəmizdə fizika fənni üzrə olimpiadalara hazırlıq istiqamətində çap edilən nəşrlərdə ekspert kimi öz dəyərli töhfələrini verirdi. Yəni o, ölkəmizin müxtəlif ali təhsil ocaqlarında mühazirələr deməklə yanaşı istedadlı şagirdlərin olimpiadalara hazırlığı istiqamətində nəzəri və praktiki dərslərin keçirilməsi, laboratoriya işlərinin hazırlanması, dərsliklərin yazılması, sualların tərcüməsi, demək olar ki, bütün sahələrdə çalışmaqla bərabər gəncləri buna təşviq edirdi, digər bir ifadə ilə desək, gənclərdə fizika fənninə, onun tədrisinə maraq oyatmağı bacarmışdı.

Təsadüfi deyildir ki, bu gün ölkəmizin ən qabaqcıl ümumtəhsil müəssisələrində fizika fənnini tədris edən orta məktəb müəllimləri bir vaxtlar Naqif müəllimin tələbəsi olublar. O şagirdlərə ancaq fizikanı öyrətməklə kifayətlənməyib, onlara ümumbəşəri insani dəyərləri, elmin sonsuz gözəllikləri, vətənimizə və böyük şəxsiyyətlərimizə qarşı olan sevgini aşılayırdı.

Onun vəfatı ilə biz çox hörmətli böyüyümüzü, Azərbaycan elmi çox görkəmli alimini, şagirdlərimiz isə savadlı və onları daima inkişafa sövq edən müəllimini, tələbələrimiz elmin dərinliklərində onlara yol göstərən mayakı itirmiş oldu. Ancaq yeganə təsəllimiz onun bir vaxtlar yetişdirdiyi, hazırda müxtəlif sahələrdə öz işini ləyaqətlə icra edən tələbələrdir. Bir daha yaxınlarına, dostlarına, əzizlərinə başsağlığı verir, Naqif müəllim üçün isə Allahdan rəhmət diləyirik.

**Rəşadət Qədimalıyev,** *fizika üzrə Olimpiada komandamızın müəllimi:*

- Naqif müəllimi orta məktəbdə oxuyarkən qiyabi olaraq tanıyırdım. Şəxsi tanışlığımız universitetdə oxuyarkən o zamankı Bakı Türk Liseyində olimpiadaçı şagirdlərə rəhbərlik etdiyim dövrə təsadüf edir. O zaman Naqif müəllim liseydə Beynəlxalq Fizika Olimpiadalarına hazırlaşan şagirdlərə olimpiada dərsləri keçirdi. Universitetin III kursunda oxuyarkən kvant fizikası dərsini Naqif müəllimin tədris etməsi ilə həm də müəllim-tələbə münasibətimiz başlamış oldu. O zamandan olimpiada sahəsində sıx əməkdaşlığımız və dostluğumuz başladı. Magistraturada oxuyarkən də bir neçə ixtisas dərsini Naqif müəllimdən aldım. Daha sonra doktoranturaya daxil oldum və çox sevindirici idi ki, elmi rəhbərim məhz Naqif müəllim idi. 2015-ci ildən bəri Naqif müəllim Respublika Fizika Olimpiadasının rəhbəri, mən isə münsiflər heyətinin üzvü olduğum üçün sıx-sıx görüşürdük. Naqif müəllim həm də Beynəlxalq Fizika Olimpiadalarının (Asiya Fizika Olimpiadası, Beynəlxalq Fizika Olimpiadası, Avropa Fizika Olimpiadası və s) rəhbəri idi. Həmin olimpiadalarda mən də rəhbər köməkçisi kimi iştirak etdiyim üçün xarici səfərlərdə Naqif müəllimi daha yaxından tanımaq şansım oldu.

Naqif müəllim atamdan cəmi 2 yaş kiçik idi. Buna baxmayaraq bizim münasibətimiz müəllim-tələbə, iş yoldaşı kimi yox, daha çox dost münasibəti kimi idi. Olimpiada işləri ilə əlaqədar olaraq bəzən fikirlərimiz üst-üstə düşmürdü və tez-tez mübahisələrimiz olurdu. Buna baxmayaraq Naqif müəllim heç vaxt bundan inciməzdi. Ondan yaşca çox kiçik olsam da, fikirlərimə həmişə hörmətlə yanaşardı. Bəzi tanıdıqlarıma deyirdi ki, “mən Rəşadəti oğlum kimi görürəm”. Mənə hədsiz güvəni olduğu üçün həmişə çalışırdım ki, bu güvən itməsin. Naqif müəllimin mənə ən təsir edən davranışlarından biri ailəsinə qarşı münasibəti idi. Beynəlxalq olimpiadalar üçün xarici ölkələrdə səfərdə olduğumuz zamanlarda tez-tez ailə üzvləri ilə əlaqə saxlayardı. Onun qızına və oğluna qarşı davranışını görəndə belə qənaətə gəlirdim ki, yəqin ki, övladları belə bir ataya sahib olduqları üçün xoşbəxtdirlər. Naqif müəllimlə son görüşümüz Respublika Fənn Olimpiadalarının online apelyasiyası zamanı olmuşdu. Həmin vaxt özünü yaxşı hiss etmədiyi üçün ümumi prosesdə iştirak edə bilmədi. Bundan sonra onun xəstəxanaya yerləşdirildiyini eşitdik. Düşünürdüm ki, yəqin tezliklə sağalıb yenidən aramıza qatılacaq. Heç ağlıma da gəlməzdi ki, Naqif müəllimi bir daha görə bilməyəcəyik. Ölüm xəbərini eşidəndə çox sarsıldım və üstündən 2 həftəyə yaxın vaxt keçsə də hələ də inanmaq istəmirəm.



Naqif müəllimi həm müəllim olaraq, həm də insan olaraq qəlbimizdə dərin izlər qoyub getdi. Ona Allahdan rəhmət, yaxınlarına başsağlığı diləyirəm.

Azərbaycanda olimpiada hərəkatının təşkilatçılarından olan Naqif Nəbiyevin saysız istedadlı gənclərin yetişməsində böyük rolu olub.

**Azər Eyvazov,** *ABŞ-ın Kornell Universitetinin məzunu, “Goldman Sachs” İnvestisiya Bankının əməkdaşı:*

- Naqif müəllim orta məktəbdən mənim fizika olimpiada müəllimim olub. Olimpiadalara hazırlaşanda bizə çox dərs deyib, birlikdə çoxlu məsələ həll etmişik. Orta məktəbi bitirəndən sonra da Naqif müəllimlə bəzi layihələrdə birlikdə işləmişik. 2009-cu ildə Azərbaycanda Ümumdünya Gənclərinin Elm Olimpiadasında Naqif müəllimlə mən olimpiadanın fizika bölməsinin mükəmməl bir şəkildə həyata keçirilməsinə kömək etmişik. Bundan əlavə, Naqif müəllimin tələbələri ilə bir neçə dəfə fizika ixtisasının gələcəyi, bu yolda irəliləmək və karyera qurmaq haqqında söhbətlərimiz olub.

Ötən bazar ertəsi Naqif müəllimin vəfatı haqqında ilk xəbəri oxuyanda, əvvəlcə elə bildim nəsə səhv yazılıb, sonra fikirləşdim, bəlkə mən yuxudayam. Bir neçə ay bundan əvvəl, Ramazan bayramı günlərində onunla yazışmışdıq, düzünü desəm, hələ də Naqif müəllim kimi bir insanın bu dünyadan köçdüyünə inana bilmirəm. Allah rəhmət etsin, nur içində yatsın və yaxınlarını qorusun. Bu virus mənim gözlədiyimdən daha təsirli oldu, ancaq insanın özünə yaxın birini həyatdan aparanda çox şəxsi bir təəssürat yaranır.

İnşaAllah daha çox insanı itirmədən bu virusu məğlub edə bilərik.

**Elnur Hacıyev,** *Honkonq Elm və Texnologiyalar Universitetinın PhD doktorantı:*

- Doğruluğuna inanmaq istəmədiyim bu acı xəbəri Honkonqda aldım. Naqif müəllimin bizə keçdiyi gözəl dərslərdən illər ötsə belə, ata kimi qayğısını hər zaman hiss etmişəm. Naqif müəllimin aramızdan ayrılması ürəyimdə dərin iz qoydu... Ramazan bayramında görüntülü danışmaq nəsib olmuşdu, hal-əhvalı yerindəydi. Yaxşı ki, o söhbətimizin sonuna doğru ona “sizi ikinci atam kimi bilirəm, qayğınızı hər zaman hiss edirəm” demişdim. Allah qəni-qəni rəhmət eləsin! Yeri-yurdu Behişt olsun!

Naqif müəllim uzun illər minlərlə tələbə yetişdirib, Azərbaycan təhsilində böyük bir iz buraxıb. Hər zaman tələbələrlə yaxın ünsiyyət qurmağı bacarıb və özünü sevdirib, öyrətdiklərini sevərək öyrədib. Yaxşı yadımdadır, biz hələ 10-cu sinifdə olanda bizimlə fizika məsələlərini uzun-uzadı müzakirə edirdi, fikirlərimizə dəyər verirdi, mövzuya ciddi maraq oyatmağı bacarırdı. Bizimlə arada böyük yaş fərqi olsa da, ruhən cavan idi və bizimlə asanlıqla ünsiyyət qururdu. Gündəlik uğurlarımızı alqışlayıb bizi daima irəliyə doğru cəsarətləndirirdi. Ondan fizikanı öyrənə bilməyənlər heç olmasa insanlıq dərsi öyrəndilər.

Onun və digər müəllimlərin böyük səyləri nəticəsində Azərbaycan beynəlxalq olimpiadalarda onlarla medallar qazandı. 2016-cı ildə Honkonqda keçirilən Asiya Fizika Olimpiadasında onunla birgə Azərbaycanın lider heyətində iştirak etmək mənə nəsib oldu. Birlikdə 2 gecə səhərə kimi məsələləri öz dilimizə tərcümə etdik. O yaşda bir insan bu cür çətinliklərə sırf tələbələrinin uğuru üçün qatlaşırdı. Əminəm ki, yetişdirdiyi olimpiadaçılar onun ümumi tələbələrinin sayı qarşısında aysberqin görünən ucu kimidir.

Honkonqda APHO-da onunla daha yaxından söhbət etmək, həyatından bəzi hekayələri dinləmək və məsləhətlərini almaq imkanım oldu. Ondan sonra da hər zaman əlaqə saxladıq və həmişə qayğısını hiss etdim əziz müəllimimin. Həyat çox qısadır, 35 illik fəaliyyət çox sürətlə gəlib keçdi. Ancaq geriyə baxanda bərəkətli bir ömür yolu görsənir. Artıq o, əbədiyyətə qovuşub.

*Və...*

*Müəllimlik ilahi bir missiyadır. Tək-tək insanlar, bu adı layiqincə daşıyanlar onun zirvəsinə yüksələ bilirlər. Naqif müəllim kimi. Vaxtsız ölüm bu istedadlı, səmimi, qayğıkeş insanı aramızdan qəfil aparsa da, ölüm belə onun parlaq xatirəsi qarşısında acizdir. Onun yetirmələrinin bundan sonra da elm məbədinə gedən yolda öz uğur salnamələrini yazacaqlarına,Vətənimizə, təhsilimizə öz layiqli töhfələrini verəcəklərinə inanırıq.*

*Bu bir həyat fəlsəfəsidir ki, gözünün nurunu, ürəyinin istiliyini, şəfqətini başqalarından əsirgəməyənlər yaddaşlardan silinmir, xatirələrdə, könüllərdə özünə əbədilik qazanır. Neçə-neçə istedadlı gənc üçün əsl məktəb olan Naqif müəllimin xatirəsi sevənlərinin qəlbindədir və həmişə yaşayacaq. Naqif müəllim bir çoxlarının yaddaşında məhz bu cür qalacaq - Böyük MÜƏLLİM, sadə və səmimi İNSAN.*

**Ruhun şad olsun, MÜƏLLİM!**

**Fuad Qarayev:**

Naqif müəllim şagirdlərin seçimindən tutmuş son hazırlıq prosesinə qədər məsələlərə çox obyektiv və şəffaf yanaşardı. Onun rəhbərliyi altında Fizika fənni üzrə beynəlxalq olimpiadalara hazırlıq komandamız 2015-ci ildən bu yana müxtəlif miqyaslı beynəlxalq olimpiadalardan 6 gümüş, 15 bürünc olmaqla 21 medal qazanıb.

**Rəşadət Qədimalıyev:**

2015-ci ildən bəri Naqif müəllim Respublika Fizika Olimpiadasının rəhbəri, mən isə münsiflər heyətinin üzvü olduğum üçün sıx-sıx görüşürdük. Naqif müəllim həm də Beynəlxalq Fizika Olimpiadalarının (Asiya Fizika Olimpiadası, Beynəlxalq Fizika Olimpiadası, Avropa Fizika Olimpiadası və s) rəhbəri idi. Həmin olimpiadalarda mən də rəhbər köməkçisi kimi iştirak etdiyim üçün xarici səfərlərdə Naqif müəllimi daha yaxından tanımaq şansım oldu.

**Azər Eyvazov:**

Orta məktəbi bitirəndən sonra da Naqif müəllimlə bəzi layihələrdə birlikdə işləmişik. 2009-cu ildə Azərbaycanda Ümumdünya Gənclərinin Elm Olimpiadasında Naqif müəllimlə mən olimpiadanın fizika bölməsinin mükəmməl bir şəkildə həyata keçirilməsinə kömək etmişik. Bundan əlavə, Naqif müəllimin tələbələri ilə bir neçə dəfə fizika ixtisasının gələcəyi, bu yolda irəliləmək və karyera qurmaq haqqında söhbətlərimiz olub.

**Elnur Hacıyev:**

Yaxşı yadımdadır, biz hələ 10-cu sinifdə olanda bizimlə fizika məsələlərini uzun-uzadı müzakirə edirdi, fikirlərimizə dəyər verirdi, mövzuya ciddi maraq oyatmağı bacarırdı. Bizimlə arada böyük yaş fərqi olsa da, ruhən cavan idi və bizimlə asanlıqla ünsiyyət qururdu. Gündəlik uğurlarımızı alqışlayıb bizi daima irəliyə doğru cəsarətləndirirdi. Ondan fizikanı öyrənə bilməyənlər heç olmasa insanlıq dərsi öyrəndilər.

Tarix boyu türk dünyası bəşəriyyətə böyük töhfələr vermiş, zəngin mədəni irs yaratmış, dahi mütəfəkkir – şəxsiyyətlər yetişdirmişdir. Belə böyük şəxsiyyətlərdən biri də Türküstandan doğan günəş kimi yadda qalmış Xoca Əhməd Yəsəvidir. X.Ə.Yəsəvi (1103-1166) XI yüzillikdə yaşamış, təxminən 63 il ömür sürmüşdür. Sufizmin görkəmli nümayəndəsi, Orta Asiyada yaşamış və bütün türk – islam dünyasının böyük mütəfəkkir filosofu kimi sevilən X.Ə.Yəsəvi yaradıcılığı mənəvi-əxlaqi dəyərlər xəzinəsidir. Onun yaradıcılığında insan tərbiyəsinin bütün vacib komponentləri əksini tapmışdır. Ə.Yəsəvi nəfsin tərbiyə olunmasını, əmək tərbiyəsini, ailə tərbiyəsini və ümumiyyətlə, sağlam nəsil tərbiyə etməyi cəmiyyət üçün olduqca vacib sayır.



# Pedaqogika elminin mənbələrindən biri kimi

## Yəsəvi irsinin elmi-pedaqoji tədqiqata cəlb edilməsi olduqca gərəklidir

**İntiqam CƏBRAYILOV,**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təhsil nəzəriyyəsi şöbəsinin müdiri, pedaqogika üzrə elmlər doktoru*

Böyük mütəfəkkirin belə bir fikrinə diqqət edək:
*"Nəfsini sən özbaşına buraxma, çəkin".*
Yaxud:
*"Yüz min bəla başa düşsə inləmə*
*Ondan sonra eşq sirrini bilər dostlar"* .

Nümunədən göründüyü kimi, Ə.Yəsəvi nəfsi özbaşına buraxmağı məsləhət görmür. Çünki bir çox bəlalar insanın öz nəfsinə sahib çıxa bilməməsilə bağlı olur. Bundan əlavə, insan nə qədər ağır, çətin vəziyyətə düşsə belə, sınmamalı, möhkəm olmalı, bəlalara qarşı mübarizə aparmalı, öz sirrini başqalarına verməməlidir. Əks halda insan qəlbi ilahi eşqdən uzaq olar və kamil insan səviyyəsinə çatmaq mümkün olmaz.

Ə.Yəsəvi yazırdı ki, insan həmişə yaxşılıq etməli, amma onu da ilahi eşq ilə həyata keçirməli, özünü reklam etməməlidir. Yaxşılıq eşqə, səmimiyyətə əsaslanmalıdır. Əks halda o xeyirli əməlin özünün də faydaları olmaz. Əslində riyakarlıq, mənəviyyatdan uzaqlıq, abır-həya hissinin olmaması həm də nəfslə, səmimi olmamaqla bağlıdır.

### Sağlam təfəkkür, sağlam düşüncə

Həyat təcrübəsi də göstərir ki, mənəvi dəyərlərə hörmətsizlik, davranış pozuntuları insanın öz nəfsini cilovlaya, nəfsinə qalib gələ bilməməsi ilə bağlıdır. Ona görə də ilk növbədə insan sağlam təfəkkür, sağlam düşüncə sahibi olmalıdır. Ə.Yəsəvi yazırdı:

*Nəfs yoluna girən insan rəzil olur*
*Yoldan çıxıb günah edir, insanlıqdan uzaq olur*
*Nəfsini boğ, nəfsini boğ, ey pisliklər edən!*
*Nəfsin səni son anda kölə eylər!*

Davranışını zahirən yaxşı göstərməyə çalışan insan daxilən saf, təmiz deyilsə, belələrinə də mənəviyyatlı insan demək doğru deyil.

Türk dünyasının böyük şeyxi Ə.Yəsəvinin bu baxımdan fikirləri maraq doğurur:

*Görünüşü sufiyə bənzər, qiyamətdən qorxmazlar,*
*Günah və haram bilməz, günahlardan ürkməzlər.*

Ə.Yəsəvi həmişə zəiflərə, köməyə ehtiyacı olanlara yardım etməyi insanlığın şərtlərindən sayırdı. Böyük mütəfəkkir yazırdı ki, əziyyət çəkən, mənəvi dəstəyə ehtiyacı olan insanlara kömək etmək hər birimizin borcumuzdur. İnsan mənəm-mənəmlik prinsipindən uzaq olmalı, özünü başqalarından üstün tutmamalıdır:

*Harda görsən könlü qırıq, mərhəm ol!*
*Bircə məzlum yolda qalsa, yoldaş ol!*
*Məhşər günü dərgahına məhrəm ol!*
*Mənəm-mənəm deyənlərdən uzağam!*

Ə.Yəsəvi türklər tərəfindən islamın daha dərindən dərk olunması üçün yeni bir məktəbin əsasını qoymuşdur.

Xoca Əhməd Yəsəvinin yaşadığı dövrdə ədəbiyyat və elm dilləri fars və ərəb dilləri idi. Sadə xalqı isə öz dilində-türk dilində maarifləndirmək, islam dinini bu dildə təbliğ etmək daha çox fayda verirdi. Ona görə də Ə.Yəsəvi təsəvvüf ruhunda yazdığı əsərlərlə sadə xalqın qəlbini ilahi eşqlə alovlandırırdı.

### Pedaqoji ideyalar, tərbiyəvi fikirlər

Hələ sağlığında Türküstan elinin ağsaqqalı, "Piri - Türküstan" adı ilə tanınan X.Ə.Yəsəvinin əsərlərindən bəhs etməklə bir məsələni də xüsusi vurğulamaq istəyirik. Bu da böyük mütəfəkkirin irsinin başdan-başa pedaqoji ideyalarla, tərbiyəvi fikirlərlə zəngin olması faktıdır.

Məlumdur ki, pedaqogika təhsil, təlim, tərbiyə və şəxsiyyətin formalaşdırılması problemlərini öyrənən elm sahəsidir. Yetkin şəxsiyyətin formalaşması ilk növbədə onun qazandığı biliklərlə, aldığı tərbiyə ilə, ona edilən kənar təsirlərlə, daha doğrusu, mühitin təsirləri ilə sıx bağlıdır. Təcrübə göstərir ki, insanın qazandığı biliyin məzmunu, aldığı tərbiyənin istiqaməti necədirsə, şəxsi keyfiyyətləri də həmin məzmun və istiqamətə uyğun olur. Bu baxımdan X.Ə. Yəsəvinin yaradıcılığı pedaqogika elminin mənbələrindən biri kimi mühüm əhəmiyyət kəsb edir.

### Mənəvi tərbiyə ilə bağlı ideyalarından istifadə

Müasir dövr üçün kifayət qədər aktuallığını, elmi-nəzəri və praktik əhəmiyyətini nəzərə alaraq onun yaradıcılığının elmi-pedaqoji baxımdan araşdırılması, irsinin dərindən tədqiqi, mənəvi tərbiyə ilə bağlı ideyalarından təlim-tərbiyə prosesində istifadə faydalıdır.

Pedaqogika elmi sübut edir ki, böyüyən nəsillərin şəxsiyyət kimi yetişməsində əmək tərbiyəsi mühüm yer tutur. Tədqiqatlar göstərir ki, insan hələ kiçik yaşlarından əməyə alışdırılmalı, zəhmətin insan həyatındakı rolunu, halal əməklə dolanmağın vacibliyini dərk etməli, başqalarının əməyi hesabına yaşamamalıdır. Başqasının əməyi hesabına yaşayan insan insanlığın qədrini bilməz, dəyərlərə doğru, düzgün qiymət verməyi bacarmaz, haqq-ədaləti qorumaqda maraqlı olmaz. Haqq-ədalət olmayan yerdə isə tərbiyəvi təsirlər zəif olar, yetkin şəxsiyyətin formalaşdırılması çətinləşər. Məhz buna görə də pedaqogika elmində tərbiyədən bəhs olunarkən əmək tərbiyəsi ayrıca bölmə kimi verilmiş, onun insan həyatındakı rolu elmi cəhətdən əsaslandırılmışdır. Həyat təcrübəsi göstərir ki, həqiqətən, insanın şəxsiyyət kimi formalaşmasına əmək tərbiyəsinin son dərəcə güclü təsiri vardır. Bu baxımdan X.Ə. Yəsəvinin irsində halal əməyin, zəhməti ilə yaşamağın üstünlükləri haqlı olaraq ön plana çəkilir, bu yolla ailə dolandırmağın faydaları geniş şəkildə, dönə-dönə vurğulanır.

Pedaqogika elə bir elm sahəsidir ki, burada həm də təhsil müəssisələrində bütün yaş qrupuna aid insanların, uşaqların, təhsilalanların, yaşlıların təlim-tərbiyə məsələləri əksini tapır. Ə.Yəsəvi irsində də insanın ömür boyu həyat tərzinə, elm öyrənmək, mərifət sahibi olmaq, əxlaqi - mənəvi dəyərlərə yiyələnmək və s. məsələlərə aid olduqca qiymətli fikirlər, örnəklər vardır. Bu fikir və ideyaların bəşəri, dünyəvi elm olan pedaqogikaya gətirilməsi, bu elmin mənbələri sırasında geniş təhlilinin verilməsi vacibdir. Bununla yanaşı hazırkı dövrdə, milli, bəşəri, dünyəvi dəyərlərə marağın, diqqətin artdığı bir zamanda zəngin yaradıcılıq xəzinəsi olan X.Ə.Yəsəvi irsinin elmi-pedaqoji tədqiqata cəlb edilməsi, onun elmi-nəzəri əhəmiyyətini göstərməklə bərabər, praktik dəyərinin üzə çıxarılması olduqca gərəklidir.

Ə.Yəsəvi mənəvi yüksəlişə, kamilliyə gedən yolu sadə dillə təsvir edir və hər kəsi kamil insan - şəxsiyyət kimi yetişməyə səsləyir. "Divani-Hikmət" əsərində Ə.Yəsəvi insanın ömür yolunda hər yaş dövrünün özünəməxsus xüsusiyyətlərini izah edir. Qırx yaşlı insan, Ə.Yəsəviyə görə, kamillik zirvəsinə çatmış insandır. Bu dövrdə artıq hər kəs keçdiyi ömür yoluna dərindən nəzər salmalı, günahlardan xilas olmaq üçün tövbə etməli, mənəvi - ruh dünyasının zirvəsində olmalıdır. Bütün bunlara nail olmaq üçün insan həmişə ilahi eşqlə yaşamalı, insanlara qarşı mərhəmətli olmalı, öz könlünü sevgi, məhəbbət hissi ilə daim alovlandırmağa çalışmalıdır.

### Yəsəvi irsində ailə dəyərləri

Ə.Yəsəvi irsində ata, ana, valideyn-övlad münasibətləri, bütövlükdə ailə dəyərləri mühüm yer tutur. O, ailənin bütövlüyünün qorunması, möhkəmlənməsi üçün dəyərlərə hörmət bəsləməyin vacibliyini vurğulayır. Qeyd edir ki, ailə möhkəm təməllər üzərində qurulmalı, ailə başçıları məsuliyyətlərini dərk etməli, övladlarını düzgün tərbiyələndirməlidirlər. Bundan ötrü ailə başçıları övladlarına nümunə olmalıdırlar. Onlar öz halal zəhmətlərilə yaşamalı, övladlarına halal zəhmətin dəyərini başa salmalı, başqalarının malına, əmlakına göz dikməməlidirlər. Təcrübə göstərir ki, halal zəhmətlə dolanan insan, həm də yalandan, böhtandan, əliəyrilikdən, riyakarlıqdan uzaq olur. Bu da kamil insan kimi yetişmək üçün vacib şərtlərdəndir. Düzgün tərbiyə almış övladlar həm də öz valideynlərinə hörmətlə yanaşı, onların əməyini, valideynlik missiyasını doğru, düzgün dəyərləndirir və beləliklə, valideyn-övlad münasibətlərinin tənzimlənməsi ailənin bütövlüyünü daha da möhkəmləndirir. Eyni zamanda burada varislik ənənəsi yaranır. Nəsildən-nəslə ötürülən mənəvi dəyərlər sistemi getdikcə zənginləşir, kamil insan-şəxsiyyətin formalaşdırılması imkanları genişlənir. Bu məsələlərlə bağlı Ə.Yəsəvi yaradıcılığında zəngin materiallar, ibrətamiz fikirlər, dərin fəlsəfi məzmun daşıyan hikmətlər vardır.

Qeyd etdiyimiz məsələlər eyni zamanda pedaqogika elmi ilə bilavasitə bağlıdır. Pedaqogika elminin başlıca xüsusiyyətlərindən biri sağlam nəsil böyütmək, uşaqların ailə tərbiyəsini düzgün təşkil etməkdən ibarətdir. Yaşadığımız hazırkı dövrdə-müasir informasiya cəmiyyətində mənəvi-əxlaqi cəhətdən sağlam nəsil yetişdirmək xüsusilə aktuallıq kəsb edir. Bu gün qloballaşan dünyada mənəvi dəyərlərə xüsusi önəm vermək, təhsilalanların ruhunu, düşüncəsini, şəxsi keyfiyyətlərini tarixi köklər üzrə düzgün təməllər əsasında formalaşdırmaq həqiqətən, olduqca vacib məsələdir. Bu günün şagirdinin, tələbəsinin insan kapitalı, yüksək intellekt sahibi kimi yetişdirilməsi bilavasitə dəyəryönlü, şəxsiyyətyönlü təhsil və tərbiyə vasitəsilə məqsədəuyğundur. Müasir pedaqogika elmi bu problemləri ön plana çəkir və tərbiyə ilə bərabər təhsili də haqlı olaraq dəyər kimi qəbul edir.

### Özünüdərk, soy-kökə bağlılıq, milli ruh

Bəhs etdiyimiz problemə bu baxımdan yanaşaraq qeyd edirik ki, Ə.Yəsəvi yaradıcılığı, onun qoyub getdiyi irs bir tərbiyə məktəbidir. Bu irsdə özünüdərk, soy-kökə bağlılıq, milli ruh, islamçılıq baxışları, o cümlədən türkçülüyə, türk dilinə, adət-ənənələrinə sevgi və məhəbbət, ilahi eşqin insanın saflaşmasında rolu və digər məsələlər əksini tapmışdır. Bütün yaradılmışlara ilahi eşqin parlaq nümunəsi olan Yəsəvilik tarixən türk - islam dünyasının mənəvi-ruhi yüksəlişinə təkan vermiş bir bulaq-çeşmə; fikir, ideya mənbəyi, ucalıq yolu, məktəb olmuşdur. Bu məktəbin yetirmələri sonrakı dövrlərdə türk dili və mədəniyyətinin inkişafına böyük töhfələr vermişlər.

Bu gün təhsil müəssisələrində ictimai humanitar fənlərin tədrisində tarixi irsimizin, türk-islam dünyası dəyərlərinin, eyni zamanda Ə.Yəsəvi irsinin təhsilalanlara obyektiv, geniş öyrədilməsi və tətbiqi imkanları vardır. Bu baxımdan tədqiqatçı, pedaqoq - alimlərin və müəllimlərin bu problemə daha ciddi diqqət yetirmələri vacibdir.

Təcrübə və araşdırmalar göstərir ki, mədəni irsin öyrənilməsi və öyrədilməsi təhsilalanların yetkin şəxsiyyət kimi formalaşmasında böyük rol oynayır. Türk - islam dünyasına aid olan mənəvi dəyərlər həm də dünyəvi dəyərlərdir. Böyüyən nəsillərimizə türk ruhunun aşılanması, onlara türk-islam dünyasına xas olan mənəvi dəyərlərin mənimsədilməsi, şagirdlərdə (tələbələrdə) sağlam düşüncə tərzinin, tarixi köklərə bağlılıq, vətənpərvərlik hissi ilə bərabər, onlarda həm də ədalət, xalqlar arasında dostluq və qardaşlıq, tolerantlıq, insan hüquq və azadlıqlarına hörmət, humanizm və digər bəşəri hisslərin formalaşmasına güclü təsir göstərir.

Türk-islam dünyasının mədəni irsinin, o cümlədən Ə.Yəsəvi xəzinəsinin bütün dünya xalqlarına çatdırılması üçün elmi konfransların keçirilməsi də mühüm əhəmiyyət kəsb edir. Bu da xalqlar, millətlər arasında dostluğa, qardaşlığa xidmət baxımından təqdirəlayiqdir.

## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 4258, **Sifariş** 1676

**Məsul növbətçi:** O.Mustafayev

## Etibarsız sayılır

**Cəlilabad şəhər** 4 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Əliyev Əli Şəmsəddin oğluna verilmiş B-646938 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli şəhər** 2 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Tağıyev Tural Vahid oğluna verilmiş B-082765 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Mahmudkənd tam orta məktəbini 2007-ci ildə bitirmiş Qəhrəmanov Süleyman Vidadi oğluna verilmiş A-385348 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Laçın rayon** Quşçu kənd tam orta məktəbin IX sinfini 1994-cü ildə bitirmiş Əliyeva (Hüseynova) Ruhiyyə Rəşid qızına verilmiş A-010380 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Kəngərli rayon** Böyükdüz kənd tam orta məktəbi 2000-ci ildə bitirmiş Quliyeva Gülnar İsmayıl qızına verilmiş A-339904 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 18 nömrəli tam orta məktəbi 1994-cü ildə bitirmiş Əmənova (Babayeva) Əminə Novruz qızına verilmiş attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir şəhər** 5 nömrəli tam orta məktəbi 1991-ci ildə bitirmiş Quliyev Vitaliy Ramizoviçə verilmiş 214022 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 149 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Ziyadxanova Rəsmiyyə Ramiz qızına verilmiş 127143 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**8 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2011-ci ildə Məmmədli Pərvin Faiq oğluna verilmiş A-001917 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Sənaye İnstitutu** tərəfindən 1999-cu ildə Qəhrəmanov Anar Ərşad oğluna verilmiş A-022880 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Sabirabad şəhər** 3 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Rzayev Elşən Əlsalam oğluna verilmiş A-378951 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad şəhər** N.Nərimanov adına Liseyi 2017-ci ildə bitirmiş İmanov Hüseyn Həmzə oğluna verilmiş E-000959 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kooperasiya Universiteti** tərəfindən 2016-cı ildə Hüseynov Yusif Sahib oğluna verilmiş A-100271 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Qazax rayonu** Xanlıqlar kənd tam orta məktəbini 2005-ci ildə bitirmiş Əliyev Söhrab Babək oğluna verilmiş B-143759 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** Ulacalı kənd tam orta məktəbi 2012-ci ildə bitirmiş İsmayılova Səliqə Həzi qızına verilmiş A-137808 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi Təhsil nazirinin müşaviri Elnur Məmmədova əzizi

**AYBƏNİZ HƏSƏNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Təhsil Nazirliyinin Maliyyə şöbəsinin müdiri Rauf Orucov və şöbənin kollektivi 1 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzinin rəisi Elxan Süleymanova qardaşı

**FƏRMAN SÜLEYMANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərbaycan müəllimi" qəzetinin kollektivi Təhsil nazirinin müşaviri Elnur Məmmədova əzizi

**AYBƏNİZ HƏSƏNOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.



# Peşə təhsili müəssisəsində bir ilk

## Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsili Mərkəzində yüksək texniki peşə - subbakalavr səviyyəsi üzrə tədrisə başlanılacaq



⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**

8 texniki ixtisas üzrə 30-dan çox videodərsin çəkilişi aparıldı və “Youtube” kanalında yayımlandı. Həmin resursdan nəinki Peşə Təhsil Mərkəzimizin təhsilalanları, hətta ali məktəb tələbələri də yararlandı. Bundan başqa, dövlət-özəl tərəfdaşlıq modelinə əsaslanaraq qurulan özəl sektorla əməkdaşlıq çərçivəsində tədris müddəti bitsə belə, məzunlarımızın əmək bazarında iş imkanlarını daha rahat əldə etmələrinə xidmət edən müxtəlif mövzularda vebinarlar təşkil olundu.

Bir sözlə, pandemiya dövründə onlayn/distant təhsil təkcə Azərbaycanda deyil, bütün dünyada təhsil sistemini düşdüyü kritik situasiyadan xilas etdi. Böhran bir Mərkəz olaraq gələcəkdə tədrisin necə təşkil edilməsi üzərində yenidən düşünmək imkanı verdi.

*- Çətin proqram, koronavirus və tamamilə yeni olan peşə təhsil mərkəzi. Mənimsəmə faizi qaneedici oldumu? Sizcə, əmək bazarı ilk buraxılışınızdan razı qalacaqmı? Ümumiyyətlə, ötən bir ildə əmək bazarının nəbzini yoxladınız... Necə bilirsiz, bu bazarın tələbini ödəyə biləcəksinizmi?*

-Bəli, Mərkəzdə 2019-2020-ci tədris ili birillik tədris proqramı üzərindən həyata keçirildi. Əmək bazarında hazırda tələb olunan ixtisaslar üzrə müvafiq təkliflər irəli sürüldü. Tədris ilinə başlamadan öncə şirkətlərin tədris proqramlarına dair rəylərini topladıq və tətbiq etdik. Bununla yanaşı, tədris ili ərzində texniki ixtisaslarla bağlı təsnifatları nəzərdən keçirdik. Peşə təhsil sistemində yenilik olan Koreya peşə modelinə əsaslanan tədris proqramı ilə bu birillik sınaqdan təhsilalanların təhsilə olan həvəsi, mühəndis-pedaqoji heyətin öhdəliyə qarşı olan məsuliyyəti, əməkdaşlıq etdiyimiz dövlət və özəl sektorun nümayəndələrinin aramsız dəstəyi, innovativ texnologiya vasitələrinə düzgün yanaşma və qabaqlayıcı tədbirlər sayəsində uğurla çıxdıq. Tədris prosesi zamanı əmək bazarında apardığımız fasiləsiz araşdırmalar, yeni-yeni əməkdaşlıqlara atdığımız imza, əməkdaşlıq etdiyimiz şirkət mütəxəssislərinin mütəmadi tədris prosesində iştirakı yetişdirdiyimiz kadrların müasir tələblərə cavab verəcəyinə dair əminlik yaradır.

### Tələbə qəbuluna start verildi

*- Artıq yeni tədris ilinə hazırlıqlar başlayıb. Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi iyulun 6-dan etibarən pilot peşə təhsil proqramlarına 2020-2021-ci tədris ili üzrə tələbə qəbuluna start verib.*

- Bəli, Peşə Təhsil Mərkəzində təhsil almaq istəyən şəxslər müəssisənin rəsmi saytı vasitəsilə (http://bii.edu.az) iyulun 24-dək elektron qeydiyyatdan keçmək imkanına malikdirlər. Qeydiyyat başa çatdıqdan sonra elektron ərizələrin qiymətləndirilməsi həyata keçiriləcək. Ərizələrdəki məlumatların uyğunluğu yoxlanıldıqdan sonra yüksək nəticə əldə edən namizədlər növbəti mərhələyə dəvət ediləcəklər.

*- Yüksək nəticəni kimlər əldə edəcək?*

- Tam orta təhsil və ixtisas fənləri üzrə qiyməti yüksək olanlar. Onlara ikinci mərhələdə seçdikləri ixtisaslar üzrə sual və tapşırıqlar təqdim ediləcək.

*- Bu ildən Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində yüksək texniki peşə təhsili, subbakalavr proqramlarında təhsil almaq da mümkün olacaq?*

- Elədir. Təhsil almaq üçün Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində tam orta təhsil bazasından “Torna və frezer dəzgahların operatoru”, “Avtomobil diaqnostikası və təmiri ustası”, “Sənayedə quraşdırma işləri üzrə usta”, “Elektronika ustası”, “Elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru”, “İnşaat ustası”, “Mebel ustası”, “Veb dizayner və proqram təminatçısı”, “Avtomatika üzrə usta” adlı fərqli ixtisaslar üzrə 1 illik (texniki peşə təhsili), “Nəqliyyat vasitələrinin texniki istismarı”, “Kompüter sistemlərində proqram təminatı” ixtisasları üzrə isə 3 illik subbakalavr, yüksək texniki peşə təhsili) proqramlarda təhsil almaq mümkündür. Uğur qazanan namizədlər üçün geniş imkanlarımız var. Bilirsiniz ki, Mərkəz ən müasir maddi-texniki baza ilə təchiz edilib. Koreyalı ekspertlərlə birgə hazırlanan tədris proqramları əsasında tədris aparan mühəndis-pedaqoji heyətin əksəriyyəti Koreya Respublikasında 3 ay müddətində ixtisasartırma təlimlərində olub. Tədris 4300-dən çox Koreya istehsalı avadanlıqla təchiz olunan 25 laboratoriyada həyata keçirilir.

*- Qəbul həyata keçirilən ixtisaslar üzrə müəyyən rəy yaratmaq və təhsilalanların həmin ixtisaslar üzrə maraqlarını üzə çıxarmaq məqsədilə sənəd qəbuluna başlamazdan öncə təlimlər təşkil etməyi planlaşdırırdınız. Nəzərdə tutulan həmin təlimlər baş tutdumu?*

- Gənclərin peşəyə istiqamətləndirilməsi yönündə maarifləndirmə işlərinin aparılması və peşə təhsilinin vacibliyinin aşılanması, eyni zamanda Mərkəzin peşə təhsili imkanları ilə daha çox gəncin məlumatlandırılması məqsədi ilə müəyyən fəaliyyət planımız var. Sözügedən təbliğat planına dair işlərin bir qismi pandemiyadan öncə görülmüşdü. Belə ki, Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində peşəyönümü üzrə təbliğat işlərinin aparılması, gənclərin peşəyə istiqamətləndirilməsi üçün müəllim və pedaqoji-mühəndis heyətindən ibarət təbliğat qrupları yaratdıq. Həmin qruplar bir sıra ümumtəhsil məktəblərində şagirdlərlə görüşlər keçirdi. İyun ayı ərzində “Virtual məktəb” layihəsi çərçivəsində “Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində təhsil imkanları” mövzusunda onlayn tədbirlər keçirildi. Tədbirlər Mərkəzin peşəyönümü işlərinin planına uyğun olaraq, mərkəzin müəllim və pedaqoji-mühəndis heyətinin iştirakı ilə baş tutdu. Görüşdə Mərkəzdə tədris olunan ixtisaslar, həmin ixtisaslara qəbul qaydaları barədə ətraflı məlumat verildi. Zəngin maddi-texniki bazası olan Mərkəzlə daha yaxından tanışlığı təmin etmək üçün strukturda mövcud olan emalatxana və laboratoriya otaqlarına virtual turlar təşkil edildi. Həmin görüşlərdə işəgötürənlərlə əməkdaşlığın perspektivlərindən də söz açıldı. Qəbuldan qabaq iki texniki istiqamət üzrə mexanika və avtomatika istiqamətləri üzrə qısamüddətli təlim kursları fəaliyyətə başladı. Pandemiya ilə əlaqədar olaraq, bütün ixtisaslar üzrə video dərslər hazırlanaraq sosial kanallarda yerləşdirildiyindən və hər kəs həmin resurslardan yararlandığından bu vasitə bir Mərkəz kimi fəaliyyətimizi tanıtmaqda köməyimizə gəldi və təbliğatımızın qurulmasında bir addım qabağa düşdük.

*- Bəlkə gənclərin marağını çəkməyin ən yaxşı yolu ən çox həvəs göstərdikləri ixtisaslar üzrə hazırlıqların təşkilidir. Məsələn, “Cyber Security” (Kiber Təhlükəsizlik) ixtisası üzrə kadr hazırlığı nəzərdə tutulurdu. Bu istiqamətdə yenilik varmı?*

- “Cyber Security” (Kiber Təhlükəsizlik) ixtisası üzrə kadr hazırlığı iyul ayının sonunadək yekunlaşacaq. Qarşıdan gələn tədris ilində sözügedən ixtisas üzrə qısamüddətli ixtisasartırma təlimlərinin proqramı tərtib olunmaqdadır. Qeyd etmək istərdim ki, burada “Cisco” şirkəti ilə əməkdaşlıq vacib rol oynayır.

### Genişlənən əməkdaşlıqlar yeni layihələr vəd edir

*- “Cisco” demişkən, “Cisco Şəbəkə Akademiyası” ilə imzalanan anlaşma, “Huawei”lə razılaşmanızın nəticələri ilə bağlı nə deyərdiniz? Pandemiyadan əməkdaşlıqlarınız zərər gördümü, yoxsa insanlar arasına məsafə qoyan virus şirkətləri birləşdirir?*

- Məncə, pandemiyanı işlərin irəliləməsində bir maneə olaraq görmək doğru olmaz. Hədəflərə çatmaq üçün hər zaman alternativ yol var. Artıq bir aydır ki, “Cisco” şirkəti ilə əməkdaşlıq çərçivəsində fəaliyyət göstərən “Cisco Şəbəkə Akademiyası”nda metodist-təlimçilər üçün peşəkar bacarıqların inkişafı mövzusunda növbəti distant təlimlərə başlanılıb. Təlimlər “Cisco” şirkətinin beynəlxalq sertifikatlı mütəxəssisləri tərəfindən keçirilir. Tədris proqramına nəzəri biliklərlə bərabər, “Cisco” avadanlıqları üzərində distant təcrübi məşğələlər və simulyasiyalar daxildir. Belə ki, real avadanlıq və “Cisco Packet Tracer” simulyatorundan istifadə edərək, Mərkəzin təlimçiləri real texniki problemləri həll etmə bacarıqlarını təkmilləşdirir, müxtəlif virtual və real alətləri tətbiq etmək imkanı qazanırlar.

“Cisco” şirkəti ilə qurulmuş uğurlu əməkdaşlıq nəticəsində Mərkəzin nəzdində yaradılmış “Cisco Şəbəkə Akademiyası” informasiya texnologiyaları sahəsində bilik və bacarıqlarını artırmaq istəyən mütəxəssislər və eyni zamanda bu sahəyə marağı olan şəxslər üçün çox gözəl imkandır. Qeyd edim ki, “Cisco Şəbəkə Akademiyası” Mərkəzdə təhsil alan tələbələr və çalışan mütəxəssislərə müasir məzmun və müvafiq sertifikasiya proqramlarına çıxış imkanı yaradır.

Növbəti tədris ilində “Huawei”lə əməkdaşlıqdan təhsilalanlarımızın ixtisaslaşmasında və kadrların hazırlanmasında yararlanacağıq. Hazırda “Huawei (HAINA) Akademiyası” qurulur və burada ilkin mərhələdə çinli ekspertlərlə birgə İKT istiqaməti üzrə təlim materialları hazırlanacaq.

*- Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi fəaliyyətinin ilk ilini çox böyük tərəfdaşlarla başa vurdu. Bu tərəfdaşlıqların nəticəsi olaraq “Cisco Şəbəkə Akademiyası” kimi maraqlı layihələr ortaya çıxdı. “Huawei (HAINA) Akademiyası” qurulması xəbəri belə layihələrin davamlı olacağına işarədir?*

- Bəli, 2019-2020-ci tədris ili bizə əməkdaşlıq sahəsində də çox böyük imkanlar yaratdı. 30-dan artıq şirkətlə əməkdaşlıq şəbəkəmiz yarandı. Qurulmuş əməkdaşlıqlar yeni layihələrə yol açdı. Mərkəz nəzdində yeni ödənişli və ödənişsiz qısamüddətli ixtisasartırma kursları təklif olundu. Hazırda bu əməkdaşlıq daha da genişlənir. Özəl sektorla onlayn (distant) görüşlət təşkil olunur. “Cisco” şirkəti ilə yaranan əməkdaşlığın nəticəsi olan şəbəkə akademiyasının fəaliyyətə başlaması pandemiya dövrünə düşdü. Buna baxmayaraq, Mərkəzdə fəaliyyət göstərən mühəndis-pedaqoji heyət üçün ixtisasartırma təlimlərinə başlanıldı. Növbəti tədris ili üçün yeni təlim materialları hazırlandı və məsafədən tədris təşkil olundu.

Avtomobil istiqaməti üzrə dünyada tanınmış “Mercedes-Benz”, “Toyota”, “Mitsubishi”, “Honda”, “Subaru”, “Mazda”, “Opel” və digər beynəlxalq brendlərin Azərbaycanda rəsmi nümayəndələri ilə birgə əməkdaşlığa başladıq. Nəticədə, Peşə Təhsil Mərkəzinın mühəndis-pedaqoji heyəti tədris ili ərzində təhsilalanlarla birlikdə təcrübə proqramı çərçivəsində avtomobil markalarının rəsmi satış və texniki xidmət mərkəzləri ilə yaxından tanış olmaq imkanı qazandılar. Təcrübə proqramı çərçivəsində texniki xidmət mərkəzlərinin yüksək standartlara cavab verən maddi-texniki bazası, təcrübəli və ixtisaslı texniki kadrları ilə yaxından tanış olmaq imkanı yarandı. Tələbələrimizə avadanlıqların iş prinsipi əyani olaraq nümayiş etdirildi. Bununla yanaşı, təcrübə proqramında iştirak edən təhsilalanlar texniki xidmət mərkəzinin ixtisaslı texniki kadrları ilə birlikdə nəqliyyat vasitələrinə texniki xidmət göstərdilər.

*- Peşə Təhsil Mərkəzinın peşə sistemi üzrə beynəlxalq reytinqlərdə öz yerini tutması üçün peşə təhsili üzrə beynəlxalq yarışlara qatılmağa hazırlaşırdınız. Məsələn, “World Skills”da Mərkəzi təmsil edəcək komanda qururdunuz. Komandanız hazırdır?*

- İyulun 1-dən “World Skills Asia” təşkilatı üzv ölkələr üçün İKT istiqaməti üzrə 8 peşə bacarığı üzrə onlayn təlimlərə başlayıb. Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin İKT, mexanika və avtomatika istiqamətləri üzrə təlimlərə 4 metodist-təlimçisi qatılıb. 130-dan çox nümayəndənin qatılacağı təlimlər İKT şəbəkə sistemlərinin idarəedilməsi, biznes üçün İKT həlləri, veb dizayn və bu kimi digər sahələri əhatə edir. Onlayn qaydada keçiriləcək təlimdə Azərbaycandan 5 peşə istiqaməti üzrə 6 mütəxəssisin iştirakı nəzərdə tutulur.

## Hökumətlərarası Təqaüd Proqramlarına dair internet səhifəsi istifadəyə verilib

Hökumətlərarası Təqaüd Proqramlarına (HTP) dair internet səhifəsi *(http://htp.edu.az)* istifadəyə verilib. Məqsəd ictimaiyyətin HTP çərçivəsində müxtəlif ölkələr üzrə təhsilin müxtəlif səviyyələrində təqaüd proqramları ilə bağlı düzgün və mütəmadi məlumatlandırılmasını təmin etməkdir.

İstifadəçilərin rahatlığını təmin etmək üçün yaradılmış yeni internet səhifəsi “HTP haqqında”, “Təqaüd ölkələri”, “Tələbələr”, “Məzunlar”, “Elektron xidmətlər” və “Əlaqə” bölmələrindən ibarətdir. Bu bölmələrə daxil olmaqla aidiyyəti üzrə ətraflı məlumat əldə etmək mümkündür.

Həmçinin sözügedən internet səhifəsi mobil telefon və planşet istifadəçilərinin rahatlığı üçün də uyğunlaşdırılıb. Bununla yanaşı, HTP-nin “Facebook” səhifəsi də istifadəyə verilib.

## 200 Azərbaycan vətəndaşı Macarıstanda təhsil almaq hüququ qazanıb

Hökumətlərarası Təqaüd Proqramları çərçivəsində (HTP) 2020-2021-ci tədris ili üçün Macarıstan təhsil təqaüd proqramına seçimlər yekunlaşıb.

Azərbaycan Respublikası Təhsil Nazirliyi və Macarıstan İnsan Resursları Nazirliyi arasında təhsil sahəsində uğurlu əməkdaşlığın nəticəsi olaraq 200 Azərbaycan vətəndaşı 2020-2021-ci tədris ili üzrə Macarıstanın nüfuzlu universitetlərində təhsil almaq hüququ qazanıb.

Seçim barədə Macarıstan tərəfindən verilən yekun qərar nəticəsində adıkeçən saziş üzrə 17 nəfər PhD (istənilən maraq dairəsində), 163 nəfər magistratura, 20 nəfər isə bakalavriat səviyyələrində təhsil almaq hüququ əldə edib. Onlar iqtisadiyyat, biznes və idarəetmə, mühəndislik, İT, texnologiyalar, turizm, təbiət elmləri və davamlı inkişaf istiqaməti üzrə təhsil alacaqlar. Təqaüdə layiq görülən tələbələr əsasən “Budapest University of Technology and Economics”, “Corvinus University of Budapest”, University of Szeged, “Eötvös Lorand University”, “University of Debrecen”, “University of Pecs” və digər ali təhsil müəssisələrində təhsil almaq hüququ qazanıblar.

Bildirək ki, müvafiq təqaüd proqramı barədə 25 noyabr 2019-cu il tarixində elan verilib.

## Tələbələrin köçürülməsi üzrə qeydiyyat müvəqqəti təxirə salınır

Nazirlər Kabineti yanında Operativ Qərargahın müvafiq qərarına əsasən, bəzi şəhər və rayonlarda xüsusi karantin rejiminin iyulun 20-dək uzadılması ilə bağlı tələbələrin köçürülməsi üzrə elektron sənəd qəbulu prosesi müvəqqəti təxirə salınır.

Prosesin təxirə salınması bu müddət ərzində tələb olunan bəzi sənədlərin tələbələr tərəfindən əldə edilməsində yaranacaq çətinliklərlə bağlıdır.

Tələbələrin köçürülməsi üzrə yeni qeydiyyat tarixlərinə dair ictimaiyyətə əlavə məlumat veriləcək.

## DİM 41 şəhər və rayonda imtahanlar keçirəcək

**Oruc MUSTAFAYEV**

İyulun 10-da Dövlət İmtahan Mərkəzi tərəfindən respublikanın sərtləşdirilmiş karantin rejimi tətbiq olunmayan 41 şəhər və rayonunda əvvəlki illərin məzunları üçün qəbul imtahanları keçiriləcək. Həmin gün əvvəlki illərin məzunları üçün I-IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanının 1-ci mərhələsi, həmçinin V ixtisas qrupu və tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanı keçiriləcək. Rus bölməsinin abituriyentləri qəbul imtahanından dərhal sonra Azərbaycan dili (dövlət dili) imtahanını da verirlər.

Həmçinin ali və ya orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün sənəd verən, lakin 10, 11, 18 və ya 19 iyun tarixlərində yuxarıda qeyd olunan rayon və şəhərlərdə keçirilmiş buraxılış (qəbul) imtahanlarında üzrlü səbəbdən iştirak edə bilməyən və bununla bağlı DİM-ə müraciət edən cari ilin məzunları (9-cu və 11-ci sinif) da iyulun 10-da imtahan verəcəklər.

Bundan əlavə, imtahan keçirilən şəhər və rayonlarda ali və ya orta ixtisas təhsili müəssisələrinin müsabiqəsində buraxılış imtahanında verdiyi xarici dildən fərqli dil üzrə iştirak etmək istəyən cari ilin məzunları üçün əlavə xarici dil imtahanı, həmçinin qəbul imtahanını buraxılış imtahanında verdiyi dildən fərqli dil üzrə vermək istəyən cari ilin məzunları üçün əlavə imtahan da (Azərbaycan və ya rus dili) keçiriləcək. İmtahanlarda ümumilikdə 8370 abituriyentin iştirakı nəzərdə tutulur.

Qeyd edək ki, imtahanlarda iştirak edəcək nəzarətçilər, imtahan rəhbərləri, mühafizə əməkdaşları ilə onlayn şəkildə təlim-seminarlar təşkil olunub. Bütün imtahan binalarına baxış keçirilib, imtahan zallarında abituriyentlərin rahat şəkildə imtahan verməsi üçün zəruri şərait yaradılıb.

Bundan əlavə, Mərkəz tərəfindən pandemiya şəraitinin tələblərinə uyğun olaraq imtahan binalarında bir sıra profilaktik tədbirlər (binaların və otaqların dezinfeksiyası, hər bir otağa düşən iştirakçı sayının sosial məsafə prinsipinə uyğun şəkildə tənzimlənməsi, imtahan heyətinin müvafiq qoruyucu vasitələrlə (xüsusi geyim, əlcək, tibbi maska) təmin olunması həyata keçirilib.

Ehtiyat tədbirləri çərçivəsində imtahan binasına daxil olan iştirakçılarının məsafədən ölçə bilən elektron termometrlə bədən hərarətləri yoxlanılacaq, zəruri dezinfeksiyaedici vasitələrdən istifadə olunacaqdır. İmtahana bədən hərarəti 37°C-dən aşağı olan şəxslər buraxılır.